Günəş Şərqdən doğur!

❒ № 113 (5394), 2021-ci il

Qiymәti 40 qәpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az 30 iyun 2021-ci il (çərşənbə)



## Bakıda son bir həftədə 19 nəfəri gün vurub

İyunun 22-29-də ümumilikdə 19 nəfər günvurma şikayəti ilə Bakı şəhər Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasına

(Səh.3)



## Aİ Azərbaycanla yeni hərtərəfli saziş imzalamağa hazırdır

**Avropa İttifaqı (Aİ) Azərbaycanla yeni hərtərəfli saziş imzalamağa hazırdır.**

Bunu Trend-ə özəl müsahibəsində Aİ-nin Azərbaycandakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas deyib.

Onun sözlərinə görə, bu sazişlə bağlı tərəflər arasında danışıqlar 2017-ci ildə başlayıb...

(səh.2)

## Regionun mənzərəsi tamam dəyişir



Daha Rusiyanın Cənubi Qafqaza nüfuzu və təzyiqi əvvəlki kimi deyil

(səh.4)

# Azərbaycanda ali təhsil yenidən qurulur



## Milli Məclisdə “Ali təhsil haqqında" qanun layihəsi müzakirə olunub

(səh.3)

# Pandemiyada dəniz avantajdır

## Ancaq illərdir Xəzərə kasıb insanların yolu bağlanıb



(səh.9)

### Ərizələr araşdırılacaq

Medallara görə narazılıq edənlərlə bağlı tapşırıqlar verilib

(səh.2)

### Ermənistan tərəfi sülh danışıqlarından imtina edir

Onlar istəyir ki, Rusiyadan başqa digər oyunçuları prosesə daxil etsin və Azərbaycanla-Türkiyəni təkləsin

(səh.5)

### Rəşid Mahmudov da xalqın sözünü dedi

“Toylarla bağlı verilən qərarlar gülünc və mənasızdır”

(səh.9)

### Daha 87 nəfər koronavirusa yoluxub, 3 nəfər ölüb

Azərbaycanda 70 nəfər müalicə olunaraq sağalıb

(səh.8)

# Yeni otelin açılışı olub

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər



**Paytaxtımızda "Courtyard by Marriott Baku" otelinin açılışı olub.**

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.**

Dövlətimizin başçısı və birinci xanım oteldə yaradılan şəraitlə tanış olublar.

Məlumat verildi ki, "Courtyard by Marriott Baku" otelində 365 otaq, iclas, idman zalları, restoran yaradılıb. Bu cür müasir otel kompleksinin istifadəyə verilməsi həm də ölkəmizdə qeyri-neft sektorunun inkişafına töhfə olmaqla yanaşı, paytaxtın sosial-iqtisadi inkişafında mühüm rol oynayır, otel biznesinin keyfiyyətcə yeni mərhələyə qədəm qoymasına şərait yaradır.

Bu otel kompleksi Avropada və dünyada xüsusi imicə malik otellər şəbəkəsi tərəfindən inşa edilib. Son illər Azərbaycanda dünya brendlərinə məxsus bu cür otellərin istifadəyə verilməsi ölkəmizdə əlverişli investisiya mühitinin olduğunu, bölgənin iqtisadi mərkəzi sayılan Azərbaycanın turizm sahəsində də qabaqcıl sıralarda qərarlaşdığını göstərir.

Qeyd edək ki, dünyada maliyyə və iqtisadi çətinliklərin olduğu, pandemiyanın ciddi fəsadlar yaratdığı bir dövrdə Prezident İlham Əliyevin gələcəyə baxış konsepsiyası sayəsində ölkəmizdə heç bir sosial-iqtisadi layihə təxirə salınmadı. Turizm infrastrukturunun inkişafı ilə bağlı həyata keçirilən davamlı tədbirlər, o cümlədən müasir mehmanxanaların istifadəyə verilməsi Azərbaycanda postpandemiya mərhələsinə daha uğurlu keçidi təmin etməkdə böyük rol oynayır.

## Aİ Azərbaycanla yeni hərtərəfli saziş imzalamağa hazırdır



**Avropa İttifaqı (Aİ) Azərbaycanla yeni hərtərəfli saziş imzalamağa hazırdır.**

Bunu Trend-ə özəl müsahibəsində Aİ-nin Azərbaycandakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas deyib.

**Onun sözlərinə görə, bu sazişlə bağlı tərəflər arasında danışıqlar 2017-ci ildə başlayıb:**

"Aİ ilə Azərbaycan arasında hərtərəfli sazişin imzalanması ticarət dövriyyəsinin artmasına xidmət edəcək. Sənədin mətni artıq hazırdır. Azərbaycan Ümumdünya Ticarət Təşkilatının (ÜTT) üzvü olmadığı üçün ticarətlə bağlı bəzi məsələlər açıq qalır. Mən sənədin imzalanmasının konkret müddətini deyə bilmərəm, amma bu saziş bizim münasibətlərimizi və iqtisadiyyatı daha da yaxşılaşdırmağa imkan verəcək".

K.Yankauskas qeyd edib ki, Aİ Azərbaycanın ÜTT-yə üzv olmasını, eləcə də iqtisadi şaxələndirməni dəstəkləyir. Onun sözlərinə görə, bütün bunlardan başqa, Aİ ölkələrinin vətəndaşları üçün vizaların ləğv olunması Azərbaycana turist axınının artmasına xidmət edəcək.

## Ərizələr araşdırılacaq

### Medallara görə narazılıq edənlərlə bağlı tapşırıqlar verilib



**Müharibədə iştirak edib ancaq medalla təltif olunmadıqları iddiası ilə Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsi qarşısında toplaşan bir qrup vətəndaş tərəfimizdən qəbul edilib.**

Müdafiə Nazirliyindən Trend-ə verilən məlumata görə, görüş zamanı bildirilib ki, hərbi qulluqçuların müvafiq medallarla təltif olunmaları onların keçdikləri döyüş yolu və müharibədə bilavasitə iştirakı amilinin araşdırılması yolu ilə həyata keçirilib.

Görüşdə vətəndaşlar dinlənilib və müraciətləri ilə bağlı ərizələr alınaraq məsələnin araşdırılması məqsədilə hərbi hissələrə müvafiq tapşırıqlar verilib.

## Metro avqustun 1-dək şənbə-bazar günləri işləməyəcək



**Avqustun 1-dək Bakı Metropolitenində şənbə-bazar günləri sərnişindaşıma fəaliyyəti dayandırılır.**

Bu, Nazirlər Kabinetinin "Xüsusi karantin rejimi ilə bağlı əlavə tədbirlər barədə" qərarına etdiyi dəyişiklikdə əksini tapıb.

Qərara əsasən, 2021-ci il 4 iyul saat 00:00-dan 5 iyul saat 06:00-dək, 10 iyul saat 00:00-dan 12 iyul saat 06:00-dək, 17 iyul saat 00:00-dan 19 iyul saat 06:00-dək, 24 iyul saat 00:00-dan 26 iyul saat 06:00-dək, 31 iyul saat 00:00-dan 1 avqust saat 06:00-dək Bakı Metropolitenində sərnişindaşıma fəaliyyəti dayandırılacaq.

# "Media haqqında" qanun layihəsi AZƏRTAC-da müzakirə olunub

Azərbaycan Dövlət İnformasiya Agentliyində (AZƏRTAC) "Media haqqında" Azərbaycan Respublikası Qanununun layihəsinin müzakirəsi keçirilib.

Trend-in məlumatına görə, müzakirələrdə Medianın İnkişafı Agentliyinin rəhbərliyi, AZƏRTAC-ın İdarə Heyətinin üzvləri və struktur rəhbərləri iştirak ediblər.



Əvvəlcə, ulu öndər Heydər Əliyevin AZƏRTAC-ın binasının foyesindəki büstü önünə güllər düzüldü, xatirəsi ehtiramla yad olundu. AZƏRTAC-ın və AzTV-nin Kəlbəcərdə minaya düşərək şəhid olan jurnalistləri Məhərrəm İbrahimovun və Sirac Abışovun xatirə guşəsindəki portretləri önünə də güllər qoyuldu.

**AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov tədbirdə çıxış edərək, qanun layihəsinin mətbuat orqanları arasında ilk müzakirəsinin AZƏRTAC-da keçirilməsinə görə Medianın İnkişafı Agentliyinin rəhbərliyinə minnətdarlığını bildirdi.** Ulu öndər Heydər Əliyevin mətbuata böyük önəm verdiyini, jurnalistlərə və mediaya xüsusi diqqət və qayğı ilə yanaşdığını xatırladan A.Aslanov qeyd etdi ki, Ümummilli Liderin hakimiyyətə qayıdışından sonra ölkəmizdə senzura ləğv olundu, mətbuatın fəaliyyətini nizamlayan qanunvericilik bazası yaradıldı. Sonrakı illərdə Ulu Öndərin KİV sahəsində siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə milli mediamızın müasir dövrün tələbləri səviyyəsinə yüksəldilməsi istiqamətində mühüm islahatlar aparıldı.

"Hazırda media məkanında sürətli qloballaşma gedir, mətbuatın cəmiyyətdə rolu görünməmiş dərəcədə artır. Buna müvafiq olaraq informasiya mühiti gündən-günə modernləşir. Qabaqcıl texnologiyalar həyatımıza sürətlə daxil olur, aparıcı trendlər meydana gəlir. Bu gün jurnalistlərin, milli mediamızın qarşısında cəmiyyəti daha obyektiv, daha peşəkarlıqla məlumatlandırmaq vəzifəsi dayanır. Bu baxımdan qanunvericiliyin təkmilləşdirilməsi günün ən vacib tələbidir. Əminəm ki, Medianın İnkişafı Agentliyi bu sahədə üzərinə düşən vəzifələrin öhdəsindən uğurla gələcək", - deyə İdarə Heyətinin sədri bildirdi.

**Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov "Media haqqında" Qanun layihəsinin müzakirəsinə yaratdığı şəraitə görə AZƏRTAC-ın rəhbərliyinə minnətdarlığını ifadə etdi.** Yeni qanun layihəsi haqqında məlumat verən icraçı direktor bununla bağlı müzakirələrin aparılmasının əhəmiyyətindən söz açdı. O, Azərbaycanın ilk informasiya agentliyi olan AZƏRTAC-ın təcrübəli jurnalistlərinin fikirlərinin ümumi işin xeyrinə ola biləcəyini vurğulayaraq, onları işgüzar fikir mübadiləsinə çağırdı.

Sonra Medianın İnkişafı Agentliyinin Hüquq departamentinin direktoru Rəqsanə Kərimova qanun layihəsinin təqdimatını etdi. Bildirildi ki, layihənin müddəaları Azərbaycan Respublikasının ərazisində təsis olunmuş media subyektlərinə, redaksiyalara, onların məhsullarına, ölkə hüdudlarından kənarda olan və fəaliyyəti respublikamızın ərazisinə və auditoriyasına istiqamətlənmiş bütün media subyektlərinə, habelə xaricdə yaradılan media məhsullarının yalnız Azərbaycan ərazisində yayılan hissəsinə və jurnalistlərə şamil olunur. Departament direktoru tədbir iştirakçılarını media subyektləri (audiovizual, çap və onlayn media subyektləri, informasiya agentlikləri), səlahiyyətli orqanlar, mediada yayımlanan informasiyalara dair tələblər, media subyektinin informasiyasından istifadə, media reyestri, jurnalistlərin akkreditasiyası və qanun layihəsinin digər müddəaları barədə ətraflı məlumatlandırdı.

*Tədbir qanun layihəsinin diskussiya şəraitində aparılan müzakirəsi və fikir mübadiləsi ilə davam etdi, iştirakçıları maraqlandıran bir sıra suallar cavablandırıldı.*



# Azərbaycanda ali təhsil yenidən qurulur

## Milli Məclisdə "Ali təhsil haqqında" qanun layihəsi müzakirə olunub

Dünən Milli Məclisin Elm və təhsil komitəsinin və "Ali təhsil haqqında" qanun layihəsi üzrə yaradılmış işçi qrupunun birgə iclası keçirilib. Komitə sədri, işçi qrupunun rəhbəri Bəxtiyar Əliyev iclası açaraq bildirib ki, bu gün ölkəmiz elmi biliklərin, təcrübəni nəsildən nəslə ötürməyə əsas verən müasir təhsil sistemi şəbəkəsinə malikdir. Həyata keçirilən tədbirlər arasında Bolonya prosesi önəmli yer tutur:

"Bu baxımdan ölkə başçısı tərəfindən Azərbaycanda ali təhsilin inkişafını, Avropa təhsil məkanına sərbəst çıxışı əldə edə biləcək mütəxəssis hazırlığını təmin etmək məqsədi ilə ölkəmizin Bolonya prosesinə qoşulması ilə bağlı mühüm qərar qəbul edilib. Azərbaycan 2005-ci il mayın 9-da Bolonya prosesinə qoşulub və bununla da ali təhsil sahəsində aparılacaq islahatın istiqaməti və məzmunu müəyyən edilib. Bolonya deklarasiyasının müddəalarını həyata keçirmək məqsədi ilə Təhsil Nazirliyi və Nazirlər Kabineti tərəfindən ötən müddət ərzində çoxsaylı qərarlar qəbul edilib və ali təhsilin yenidən qurulması ilə bağlı bir çox işlər görülüb".

Komitə sədri bildirib ki, müzakirəyə çıxarılan "Ali təhsil haqqında" qanun layihəsi bilavasitə dövlət başçısı tərəfindən ali təhsilin qarşısında qoyulmuş məsələlərin dairəsini, rəqabət qabiliyyətli ali təhsil müəssisələrinin yaradılmasını, ölkədə gedən sürətli iqtisadi inkişafın kadr təminatının əsaslarını müəyyən edir: "Azərbaycan təhsilinin inkişafına Heydər Əliyev Fondunun da böyük dəstəyi var. Fondun təşəbbüsü ilə həyata keçirilən "Yeniləşən Azərbaycana yeni məktəb" və digər proqramlar çərçivəsində bir çox layihələr həyata keçirilib. Təhsil sahəsində həyata keçirilən islahatlar çərçivəsində, o cümlədən qəbul edilmiş dövlət proqramlarının hər birində ali təhsilin yeni normativ hüquqi bazasının yaradılmasının zəruriliyi bildirilir. Ali təhsilin inkişafını, bu istiqamətdə islahatların sürətləndirilməsini təmin etmək üçün "Ali təhsil haqqında" qanun layihəsinin hazırlanması üzrə işçi qrupu Milli Məclisin Elm və təhsil komitəsi tərəfindən 2019-cu ilin sentyabr ayında yaradılıb. İşçi qrupuna komitənin üzvləri, parlament Aparatının müvafiq şöbələrinin əməkdaşları, Təhsil Nazirliyinin nümayəndələri, rektorlar və təhsil ekspertləri daxildir. Ötən müddət ərzində işçi qrupun üzvləri məhsuldar işləyib, çox sayda müzakirələr aparılıb".



Diqqətə çatdırılıb ki, müzakirəyə təqdim olunan "Ali təhsil haqqında" qanun layihəsi 9 fəsil, 54 maddədən ibarətdir. Qarşıda duran əsas vəzifələrdən biri yenilikçi, yaradıcı, müstəqil düşüncəli, vətənpərvər şəxsiyyətin formalaşdırılmasıdır. Layihənin hazırlanması zamanı ölkəmizin təcrübəsi, mövcud olan normativ-hüquqi aktlar, Avropa ölkələrinin ali təhsil sahəsində qanunları, beynəlxalq konvensiyaların müddəaları işçi qrupu tərəfindən geniş araşdırılıb, təhlil edilib. Bu qanun Azərbaycanda ali təhsilin yenidən qurulması və Avropa təhsil məkanına ölkəmizdə əldə edilmiş təcrübənin, milli-mənəvi dəyərlərin, milli təhsil sistemimizin qorunması nəzərə alınmaqla tam uyğunlaşdırılması üçün hüquqi baza yaradır. Layihəyə əsasən, ali təhsil 4 səviyyəni müəyyən edəcək. Bu səviyyələr arasındakı keçidlər kreditlərin toplanması, təhsil müddətlərinin müəyyən edilməsi, əmək bazarının tələblərinə uyğun olaraq peşə standartlarının, peşə standartları əsasında isə ali təhsil proqramlarının hazırlanmasına imkan yaradacaq.

**İclasda iştirak edən Təhsil naziri Emin Əmrullayev öz çıxışında deyib ki, təqdim olunan qanun layihəsi Azərbaycan təhsilinin qarşısında duran vacib çağırışları həll etmək baxımından böyük əhəmiyyətə malikdir:** "Azərbaycan ali təhsil sahəsində bir sıra beynəlxalq konvensiyalara qoşulub. Məqsəd ali təhsilin əlçatanlığının, keyfiyyətli olmasının, bərabər imkanlara söykənməsinin təmin edilməsi, ali təhsil müəssisələrinin idarə edilməsi ilə bağlı məsələlərin həll olunmasıdır. Azərbaycan təhsilinin öz ənənələri mövcuddur, 100 yaşlı ali təhsil müəssisəmiz var. Eyni zamanda, dünyada sürətli dəyişikliklər baş verir. Biz bu dəyişiklikləri Azərbaycan ali təhsilinə gətirmək istəyirik. Artıq kvalifikasiyalar çərçivəsində ali təhsilin qurulması nəzərdə tutulub, eyni zamanda, pillələr və səviyyələr anlayışları da saxlanılır. Bəzi məsələlər var ki, onlar Azərbaycan təhsilinin keyfiyyəti, elminin inkişafı baxımından öz həllini tapmalıdır. Bununla yanaşı, Azərbaycanın qoşulduğu beynəlxalq sənədlər və onlardan irəli gələn tələblərin yerinə yetirilməsi də önəmlidir".

Nazir bildirib ki, qanun layihəsinin böyük bir hissəsi ənənələrə söykənir, bir sıra müddəalar var ki, burada mütəxəssis rəyi, təhqiqatlar böyük önəm daşıyır: "Həmçinin qəbul prosesi, ixtisas seçimi ilə bağlı şəffaflığın təmin edilməsinə dair məqamlar da əhəmiyyətlidir". E.Əmrullayev öz çıxışında ali təhsilin əlçatanlığı, bu sahədə idarəetmə, təlim-tədris prosesi, habelə rus bölmələrində təhsilin qurulması, regionlarda təhsilin səviyyəsi və bir sıra digər aktual məsələlər barədə fikirlərini bölüşüb.

Tədbirdə iştirak edən komitə sədrinin və işçi qrupu rəhbərinin müavini Musa Qasımlı, qrupun üzvləri - deputatlar Ceyhun Məmmədov, Anar İsgəndərov, Etibar Əliyev, Eldar Quliyev, Şahin Seyidzadə, Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradov, ADA Universitetinin prorektoru Fariz İsmayılzadə, millət vəkilləri Müşfiq Məmmədov, Tamam Cəfərova qanun layihəsi barədə öz qeyd və təkliflərini söyləyiblər. Layihə ilə bağlı QHT və ictimaiyyət nümayəndələrinin iştirakı ilə geniş müzakirələr də nəzərdə tutulub. Qəbul ediləcək qanun ali təhsilin keyfiyyətinin yüksəldilməsinə xidmət edəcək.

**İsmayıl Qocayev**

## ATƏT Cənubi Qafqazda etimadın möhkəmləndirilməsi üzrə tədbirləri davam etdirəcək



**ATƏT Cənubi Qafqazda etimadın möhkəmləndirilməsi üzrə tədbirləri davam etdirəcək.**

Trend-in məlumatına görə, bunu ATƏT-in hazırkı sədri, İsveçin xarici işlər naziri Ann Linde mətbuat konfransında deyib.

O qeyd edib ki, Azərbaycan tərəfinin Ağdam rayonunun mina xəritələri müqabilində 15 erməni təhvil verməsi regionda etimadın möhkəmləndirilməsi üzrə vacib addımdır.

A.Lindenin sözlərinə görə, ATƏT bu istiqamətdə fəal addımlar atmaqda davam edir:

"Regionda mənim xüsusi nümayəndəm aktiv fəaliyyət göstərir. Mən bir neçə gün əvvəl onunla görüşmüşəm. Bundan başqa, ATƏT Minsk qrupu da fəaliyyətini davam etdirir".

O əlavə edib ki, ATƏT regionda qalan aktual məsələlərin uzunmüddətli siyasi həllinin tapılması üçün tədbirlər görməkdə davam edir.

## Bakıda son bir həftədə 19 nəfəri gün vurub



**İyunun 22-29-də ümumilikdə 19 nəfər günvurma şikayəti ilə Bakı şəhər Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasına müraciət edib.**

Bu barədə "Şərq"ə Səhiyyə Nazirliyindən bildirilib.

*Məlumata görə, 5-i uşaq olmaqla, 17 nəfərə yerində yardım göstərilib, 7 nəfər (2-si uşaq olmaqla) hospitalizasiya edilib.*

## "Delta" ştammının "Delta+" variantı daha aqressivdir

### Adil Qeybulla: "Yeni pandemiya və ya qorxulu dördüncü mərhələ başlaya bilər"



**"Delta" və "Delta+" ştammları dünyada daha geniş yayılarsa, bu, yeni bir pandemiyanın, yaxud qorxulu dördüncü mərhələnin başlanğıcı ola bilər.**

Bunu Trend-ə açıqlamasında tibb elmləri doktoru Adil Qeybulla deyib.

O, "Delta" və "Delta+" variantlarının koronavirusdan fərqli olaraq konkret əlamətlərə malik olduğunu vurğulayıb.

"Britaniya ştammı "Alfa"dır, Cənubi Afrika "Betta", Braziliya "Qamma" və Hindistan ştammı "Delta" adlanır. Bu ştammlar pandemiyanın ayrı-ayrı mərhələlərində fəallaşıblar. Hazırda 92 ölkədə Hindistan ştammının olması müəyyən edilib. "Delta" ştammının "Delta+" variantı daha aqressiv, göstəriciləri daha yüksək olan bir variantdır. Koronavirus subklinik formada, yəni əlamətsiz keçirdisə, bunun konkret əlamətləri var. Bu ştamma yoluxanlarda mədə-bağırsaq problemi, yüksək temperatur, boğazda ağrılar kimi əlamətlər özünü göstərir".

**Adil Qeybulla qeyd edib ki, uşaqlar arasında da geniş yayıldığı haqda məlumatlar var. Bu səbəbdən Ümumdünya Səhiyyə Təşkilatı artıq uşaqların da vaksinasiyasını vacib hesab edir:** "Təəssüf ki, ayrı-ayrı ölkələrdə, o cümlədən bizdə də insanlar elə bilir ki, karantin artıq bitib. Amma pandemiya hələ bitməyib, proses davam edir. ÜST karantinin son zəngi vurana qədər ehtiyatlı olmalıyıq. Qapalı mühitdən, təmaslardan yayınmalıyıq".

# Regionun mənzərəsi tamam dəyişir

## Daha Rusiyanın Cənubi Qafqaza nüfuzu və təzyiqi əvvəlki kimi deyil



### Gələcəkdə Türkiyə-Azərbaycan-Gürcüstan əməkdaşlığı daha geniş sahələri əhatə edəcək

İyunun 28-də Prezident İlham Əliyev Gürcüstanın Baş naziri İrakli Qaribaşviliyə telefonla zəng edib. Dövlət başçısı Qaribaşvilini ad günü münasibətilə təbrik edərək, ona fəaliyyətində uğurlar arzulayıb. Liderlə iki ölkə arasında dostluq və qardaşlıq münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğulayaraq, əlaqələrin bundan sonra da möhkəmlənəcəyinə əminlik ifadə ediblər.

Söhbət zamanı ikitərəfli münasibətlərin müxtəlif aspektlərinə dair məsələlər müzakirə olunub. Azərbaycanla Gürcüstanı çoxəsrlik dostluq və dinc qonşuluq əlaqələri bağlayır. Və bu reallıq hər iki ölkənin hökumətlərinin müxtəlif səviyyələrində aparılan görüşlərdə dəfələrlə vurğulanır. İrakli Qaribaşvili bu il mayın 5-də azərbaycanlı həmkarı Əli Əsədovla görüşündə Azərbaycanla münasibətlərin strateji tərəfdaşlığa çevrildiyini demişdi. Gürcü baş nazir "bizim bəxtimiz gətirib ki, Azərbaycan kimi qonşumuz var" ifadəsini də işlətmişdi. İyunun 25-də isə Gürcüstan parlamentində çıxışı zamanı Gürcüstanın yenə də Bakı ilə Yerevan arasında vasitəçi rolunu oynamağa hazır olduğunu söyləmişdi. Qaribaşvili Ağdam rayonunun mina xəritələrinin verilməsi prosesində Tbilisinin rolunu xatırlatmış, vasitəçilik missiyasını davam etdirməyə hazır olduqlarını təsdiqləmişdi. Baş nazir qeyd etmişdi ki, Gürcüstanın vasitəçi kimi iştirakı barədə razılıq onun mayda Bakıya və Yerevana səfərləri zamanı əldə olunub.

Son dönəmlər qardaş Türkiyə ilə qonşu Gürcüstan arasında da əlaqələr intensiv hal alıb. Ankara hökuməti ilə Tbilisi arasında təmaslar artmaqdadır. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Gürcüstanın baş naziri ilə görüşündə vurğulamışdı ki, Türkiyə Gürcüstanı regional əməkdaşlığın açarları kimi görür. Ərdoğanın sözlərinə görə, Türkiyə və Gürcüstanın Azərbaycanla üçtərəfli əməkdaşlığı böyük önəm daşıyır: "Türkiyə Azərbaycan-Gürcüstan-Ermənistan üçtərəfli əməkdaşlığını dəstəkləyir". Türkiyə lideri əlavə edib ki, mövcud əməkdaşlıq mexanizmləri çərçivəsində birgə addımlar atılacaq.

**Gürcüstanın əməkdaşlıq prosesinə cəlb olunmasının əhəmiyyətindən "Şərq"ə danışan politoloq Əli Orucov deyib ki, son dönəmlər Cənubi Qafqazdakı proseslər tamam fərqli yöndə cərəyan edir.** Ekspertin sözlərinə görə, xüsusən 44 günlük savaşda Azərbaycanın qələbəsindən sonra regionda geosiyasi vəziyyət kökündən dəyişməkdədir: "Etiraf edək ki, Rusiyanın bölgəyə nüfuzu və təzyiqi əvvəlki kimi deyil, xeyli zəifləyib. Əvvəllər Moskvanın təsir rıçaqları daha çox idi. Çünki Qarabağ münaqişəsi ilə həm Ermənistana, həm də Azərbaycana təzyiq edə bilirdi. İndi durum fərqlidir. Hətta forpost hesab edilən Ermənistanda belə Kremldən uzaqlaşma meyilləri müşahidə olunmaqdadır. Ərazisinin bir qismi işğal olunmuş Gürcüstan dövləti də Rusiyanın təcavüzkar siyasətinin və aqressiyasının fərqindədir. Tbilisi hökuməti rus təhlükəsindən sığortalanmaq üçün müəyyən yollar axtarır. Bu yolların ən vacibi regional əməkdaşlıqda mühüm yerlərdən birini tutmaqdır. Artıq region dövlətləri yaxşı dərk edir ki, Rusiyanın "parçala və hökm sür" siyasəti bölgə ölkələrini fəlakətə sürükləyir. NATO ölkəsi olan güclü Türkiyə və bölgədə söz sahibinə çevrilmiş Azərbaycanla əlaqələri sıxlaşdırmaq Gürcüstan üçün çox cəlbedicidir. Türkiyə və Azərbaycan timsalında güclü müttəfiqlər qazanmaq Gürcüstanın faydasınadır".

**Ə.Orucova görə, Azərbaycan Qərbin enerji şaxələndirilməsində aparıcı dövlətlərdən biridir:** "Rəsmi Bakı qonşu Gürcüstana xeyli siyasi-iqtisadi dividendlər qazandırıb. Bunları itirmək Gürcüstan üçün ciddi problemlər yaradır. Qonşularımız başa düşürlər ki, gec-tez Ermənistan regional əməkdaşlığa qoşulmaq məcburiyyətində qalacaq və Zəngəzur dəhlizi açılacaq. Gürcüstan indiki tranzit mövqeyini itirməmək üçün alternativ üsullar axtarır. Bu alternativ yollara çıxış isə Azərbaycansız mümkün deyil. Fikrimcə, bundan sonra Gürcüstan-Türkiyə və Azərbaycan əməkdaşlığı daha geniş sahələri əhatə edəcək. Gələcəkdə üçlü əməkdaşlıq müdafiə sahəsinə də şamil olunacaq. Türkiyə-Gürcüstan arasında hərbi müqavilə imzalana bilər. Yaxud üç ölkənin birgə hərbi əməkdaşlığını özündə ehtiva edən ortaq saziş bağlanar".

**İsmayıl Qocayev**



## Bayden Rusiya ilə ABŞ-ın əməkdaşlıq edə biləcəyi sahələri açıqlayıb

**Rusiya və ABŞ-ın nüvə silahının yayılmaması və iqlim dəyişikliyi kimi sahələrdə əməkdaşlıq etmək şansı var.**

APA-nın TASS-a istinadən verdiyi xəbərə görə, bunu ABŞ prezidenti Co Bayden deyib.

O bildirib ki, Rusiya ilə ortaq maraqlarının olduğu sahələrdə nüvə silahının yayılmaması və iqlim dəyişikliyi mövzusunda əməkdaşlıq edə biləcəklərini Prezident Vladimir Putinə açıqca söyləyib.

Rusiya ilə ABŞ arasındakı fərqlərdən danışan C. Bayden mümkün kiber hücumlar və ya ABŞ iqtisadiyyatına müdaxilə olacağı halda ölkəsinin buna cavab verəcəyini qeyd edib.

## Azərbaycan Rusiyanın Mi-24 helikopterinin vurulması ilə bağlı sübutlar götürüb, ekspertizalar keçirib

**"9 noyabr 2020-ci il tarixdə Ermənistan-Azərbaycan sərhədinin Naxçıvan hissəsində Rusiya Federasiyasına məxsus Mi-24 hərbi helikopterinin vurulması ilə bağlı Azərbaycan Respublikasının Baş Prokurorluğunda dərhal araşdırmalar aparılaraq cinayət işi başlanıb, iş üzrə müvafiq ekspertizalar təyin edilib, maddi sübutlar götürülüb, həmçinin digər lazımi prosessual hərəkətlər yerinə yetirilib".**

Bu barədə "Şərq"ə Baş Prokurorluğun mətbuat xidmətinin rəhbəri Günay Səlimzadə bildirib.

Onun sözlərinə görə, hazırda cinayət işinin istintaqı davam edir, təyin edilmiş ekspertizaların rəylərinə uyğun olaraq qanuni qərarın qəbul edilməsi təmin ediləcək.

# Paşinyan hələ ölkəsinə tam nəzarət edə bilmir

## "Kəlbəcər və Tovuz istiqamətində müşahidə olunan atəşkəsin pozulma halları nəbz yoxlanışı ola bilər"

Son günlər Ermənistan silahlı qüvvələri tərəfindən sərhəddə atəşkəsin pozulması halları intensivləşib. Bir həftə ərzində erməni hərbçiləri tərəfindən dövlət sərhədinin Kəlbəcər və Tovuz rayonu istiqamətlərində təxribata əl atıblar. Ekspertlərin fikrincə, sabiq prezident Robert Koçaryanın rəhbərlik etdiyi "Qarabağ klanı"nın ordu içərisindəki üzvləri məqsədli surətdə sərhəddə təxribatlar törədirlər.



Məqsəd seçkidə qalib olan Nikol Paşinyanı pis duruma salmaq, regional sülh proseslərini dalana dirəməkdir. Paşinyan hələ nə hökumətini, nə də parlamenti formalaşdırıb. Belə bir vəziyyətdə demokratiya və delimitrasiya prosesinin getdiyi Kəlbəcər, Tovuz istiqamətində atəşkəsi pozmaq məntiqsizdir. Heç kəsə sirr deyil ki, bu gün Ermənistan silahlı qüvvələri daxilində "Qarabağ klanı"na məxsus zabit və əsgərlər var. Bir müddət öncə 40-a yaxın yüksək rütbəli zabitin Nikol Paşinyana hakimiyyətdən getməklə bağlı xəbərdarlıq etməsi də bunu isbat edir. Görünür, son günlər atəşkəsin pozulma halları məhz "Qarabağ klanı"na sadiq hərbiçilərin ordu daxilində özfəaliyyəti ilə əlaqədardır. Sərhəd təxribatlarında Rusiyanın, daha doğrusu, Kremldəki bəzi dairələrin də adı hallanır.

**Erməni tərəfinin təxribatlarını "Şərq"ə dəyərləndirən AMİP sədri Arzuxan Əlizadə vurğulayıb ki, Kəlbəcər və Tovuz istiqamətində müşahidə olunan atəşkəsin pozulma halları nəbz yoxlanışı ola bilər.** Partiya rəhbərinin sözlərinə görə, baş verənlərin kökündə Paşinyanın proseslərə tam nəzarət etməməsi məsələsi durur: "Şübhəsiz, burada Rusiya faktoru da var. Məlum məsələdir ki, Paşinyana qarşı çıxan əsas qüvvə "Qarabağ klanı", Koçaryan-Sarkisyan cütlüyüdür. Bu siyasi qruplaşmanın arxasındakı güc isə Moskvadır. Kremldə bəzi güclər regionun sabitliyində maraqlı deyil. Ermənistanın və bölgənin sabitlik içində olmasını erməni siyasilər içində anlayan yeganə şəxs Paşinyandır. Paşinyan yeni hökuməti qurandan sonra üzərinə götürdüyü öhdəliklərə qeyd-şərtsiz əməl etməlidir. Zəngəzur dəhlizinin açılmasından tutmuş digər regional kommunikasiyaların bərpası və sərhəd zolağının müəyyən olunmasına qədər İrəvan hakimiyyətinin həll etmək məcburiyyətində olduğu ciddi məsələlər var. Yalnız bundan sonra Azərbaycanla hər hansı məsələnin müzakirəsindən söhbət gedə bilər. Təxribata əl atanların əsas məqsədi bu prosesi yubatmaqdır. 10 noyabr Bəyannaməsi sonadək icra olunmayıb. Ermənistanda seçki dönəmi olduğuna görə, rəsmi Bakı gözləmə mövqeyində idi. Ancaq yaxın günlərdə erməni tərəfində müsbətə doğru dəyişiklik olmazsa, Azərbaycan fərqli addımlar atmalı olacaq. İstənilən halda erməni silahlı qüvvələri təxribatlara görə cavab verəcəklər. Amma bu cür təxribatlarla öz məqsədlərinə nail ola bilməyəcəklər".

**İsmayıl Qocayev**

# Ermənistan tərəfi sülh danışıqlarından imtina edir



## Onlar istəyir ki, Rusiyadan başqa digər oyunçuları prosesə daxil etsin və Azərbaycanla-Türkiyəni təkləsin

**Ermənistanda keçirilən parlament seçkiləri başa çatdıqdan sonra 10 noyabr 2020-ci il və 11 yanvar 2021-ci il tarixlərində imzalanmış üçtərəfli razılaşmaların icrası aktuallaşdı. Bu məsələ Azərbaycan və Rusiya prezidentləri arasındakı sonuncu telefon danışığı zamanı da müzakirə olunub.**

Aydındır ki, razılaşmaların həyata keçirilməsi birbaşa Azərbaycan və Ermənistanın ərazi bütövlüyünün qarşılıqlı şəkildə tanınmasından asılıdır. Rəsmi Bakı buna hazırdır, amma İrəvan hələ qərarsızdır. Doğrudur, ilk işarələrdən sezmək olur ki, Nikol Paşinyan Azərbaycanın ərazi bütövlüyünü tanıyan müqaviləyə imza atacaq. İrəvanda dərc edilən "Hraparak" hətta təxmini tarixləri də (sentyabr ayı) qeyd edib.

Maraqlıdır, həqiqətən də Ermənistan sülh müqaviləsini imzalayacaqmı?

**Sosial Tədqiqatlar Mərkəzinin Mətbuat Xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə mütəxəssis Əziz Əlibəylinin "Şərq"ə açıqlamasına görə, Ermənistan tərəfi sülh danışıqlarından imtina edir, razılaşmaları yerinə yetirmək istəmir:** "Bunun da bir neçə səbəbi var. Razılaşmalara imza atmaqlarının əsas səbəbi müharibədə məğlub olmaq ilə əlaqədar idi. Faktiki olaraq ziyanın yarısından dönmək istəyirlər.

Çalışırdılar ki, müharibədə daha az zərərə uğrasınlar və az itkilərə məruz qalsınlar. Ona görə də 10 noyabr razılaşmasına imza atmışdılar.

Amma 26 İyun Silahlı Qüvvələr günündə Prezident İlham Əliyevin səsləndirdiyi "Erməniləri sülhə məcbur edəcəyik" ifadəsi onu göstərir ki, erməni tərəfi sülh danışıqlarına qayıtmaq niyyətində deyil.

Ümumiyyətlə, prosesdən imtina etməyə çalışırlar. Burada bir neçə detal var: Birinci detal ondan ibarətdir ki, erməni xalqının gözündə müharibənin nəticələrinin təsirlərini azaltmağa çalışırlar.

İkincisi, Cənubi Qafqazda aktorlar dəyişib və erməni tərəfi istəyir ki, Rusiyadan başqa digər oyunçuları prosesə daxil etsin və Azərbaycanla-Türkiyəni təkləsin.

Hazırda Paşinyan hakimiyyəti məhz bu istiqamətdə sülh, dialoq və əməkdaşlıqla bağlı baxışlar sərgiləməkdədir".

**Yeganə Bayramova**

# "Ölkəmizə qarşı sənədlər qəbul edən dövlətlər var"

## Azərbaycanda fəaliyyət göstərən Fransa və Niderland şirkətləri ciddi yoxlamalardan keçməlidir



**"Fransa, Niderland və digər Avropa ölkələrində Azərbaycana qarşı olan kampaniyanın arxasında zəngin təşkilatlanmış erməni diasporu dayanır".**

**Bu fikirləri "Şərq"ə açıqlamasında millət vəkili Asim Mollazadə söyləyib.**

Parlament üzvü vurğulayıb ki, Avropa mövcud olan siyasi korrupsiyada Niderland və Fransa kimi ölkələrə dəstək verir: "Ölkəmizə qarşı sənədlər qəbul edən dövlətlər var. Azərbaycan bu ölkələrlə iqtisadi münasibətlər quraraq çox diqqətli olmalıdır. Həmin ölkələrin şirkətləri Azərbaycanın "Böyük qayıdış" layihələrindən xaric edilməlidir.

Azərbaycanda fəaliyyət göstərən Fransa və Niderland şirkətləri ciddi yoxlamalardan keçməli və onlar öz siyasətçilərindən tələb etməlidirlər ki, ölkəmizlə münasibətləri normal müstəvidə formalaşdırsınlar.

Fikrimcə, bu, siyasi korrupsiyaya qurşanmış Avropa siyasətçilərini normal vəziyyətə gətirmək üçün hər zaman çox real bir mexanizmdir".

**Yeganə**

# Ermənilərin "Yalan maşınını" durdurmaq olar



## "Qarabağda faktaraşdırıcı missiya ilə mümkün qədər çox iş aparmaq lazımdır"

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyevanın dəvəti əsasında Türkiyənin İnsan Hüquqları və Bərabərlik Qurumunun (TİHEK) nümayəndə heyəti işğaldan azad edilmiş ərazilərdə faktaraşdırıcı missiya həyata keçirmək məqsədilə ölkəmizə 28 iyun - 2 iyul tarixlərini əhatə edən səfərə gəlib. Bu barədə Ombudsman Aparatından məlumat evrilib.

Nümayəndə heyətinə TİHEK-in rəhbər şəxsləri, habelə Türkiyənin tanınmış universitetlərinin beynəlxalq humanitar hüquq və müharibə cinayətləri sahəsində araşdırma təcrübəsinə malik olan tədqiqatçıları daxildir. Bəs türkiyəli rəsmilərin Qarabağda faktaraşdırıcı missiya həyata keçirməsi Azərbaycana nə kimi müsbət təsirləri olacaq?

**Sualımızı cavablandıran BAXCP sədrinin müavini, politoloq Azər Qasımov "Şərq"ə açıqlamasında deyib ki, Qarabağda işğal dövründə törədilən bütün vandalizm faktları, insanlığa qarşı törədilən cinayətlər mümkün qədər araşdırılmalı, qeydə alınmalı və beynəlxalq aləmə çatdırılmalıdır.** O qeyd edib ki, bu məqsədlə Türkiyənin köməyindən istifadə mütləqdir: "Ermənistanın istər Türkiyə, istərsə də Azərbaycan əleyhinə apardığı böhtan kampaniyasının qarşısını almaq üçün Qarabağda faktaraşdırıcı missiya ilə mümkün qədər çox iş aparmaq lazımdır. Çünki bu faktlar erməni əks təbliğatının "yalan maşınını" durdurmaq üçün təsirli vasitədir. Türkiyə-Azərbaycan əlaqələri hər sahədə inkişaf etdiyi kimi, beynəlxalq aləmdə erməni vandalizminin ifşa olunmasında da əməli işlərin görülməsi üzərində çalışmalıdır".

**A.Qasımov hesab edir ki, türkiyəli rəsmilərin Qarabağda faktaraşdırıcı missiya həyata keçirməsi erməni vandalizminin dünya ictimaiyyətinə çatdırılmasında Azərbaycana böyük dəstək olacaq:** "Bir əsrdən çoxdur ki, erməni vandalizminə dəstək verən Fransa, Rusiya, Amerika və s. kimi ölkələr erməni lobbisinin dəstəyi ilə öz əməllərini Türkiyə və Azərbaycanın adına çıxarmaqla "qondarma soyqırım" yalanı ilə dünya ictimaiyyətində yanlış fikir formalaşdırıb. Bu yalanları ifşa etmək üçün Qarabağda türkiyəli rəsmilərlə hərtərəfli iş aparılması və dünya ictimaiyyətinə çatdırılması, bu faktların erməni ideoloqlarının uydurmalarına tutarlı cavab olacağı mütləqdir. Azərbaycan faktaraşdırıcı missiya ilə Qarabağa mümkün qədər çox dövlət cəlb etməyə çalışmalıdır. Bu, gələcəkdə təzminat tələbi zamanı Azərbaycanın əlini gücləndirəcək".

**Aynurə Pənahqızı**



# Orduda peşəkar hərbçilərin sayı çoxalacaq

## "Nəcməddin Sadıkova bağlı şəxslər vəzifəsinə "əlvida" deyəcəklər"

Azərbaycan Ordusunda yaxın gələcəkdə struktur islahatlarının yeni mərhələsi həyata keçiriləcək və Silahlı Qüvvələrin say tərkibi artırılacaq. Prezident İlham Əliyev iyunun 26-da Silahlı Qüvvələr Günü münasibətilə "Gülüstan" sarayında çıxışı zamanı bu məsələyə toxunub.

Dövlət başçısı İlham Əliyev hələ bu ilin fevralın 26-da xarici və yerli jurnalistlər üçün keçirdiyi mətbuat konfransında prosesin başlanmasının anonsunu vermişdi.

**Siyasi şərhçi Aqşin Kərimov vurğulayıb ki, orduda islahatlar Vətən müharibəsinin nəticələri və gedişatı təhlil edilərək aparılacaq. Yekun nəticə isə hərbi qüdrətin daha da artırılmasına hesablanıb:** "Prezident İlham Əliyev Azərbaycan Ordusunun daha güclü və daha müasir olmasından danışarkən Türk Silahlı Qüvvələrinə istinad vermişdi: "Bizim ordumuz daha güclü, daha müasir olmalıdır. Türk Silahlı Qüvvələrinin modeli bizim üçün ən məqbul modeldir. Bundan sonra bu istiqamətdə də bərabər çalışacağıq". Müharibədən sonra Azərbaycan Ordusunun gücləndirilməsi regionda yaranmış yeni geosiyasi reallığın tələbləridir. Say tərkibinin artırılmasının paralelində ən müasir silahların tədarükünün davam etdirilməsi də aktuallıq kəsb edir. Bu isə hərbi texniki əməkdaşlıq haqqında yeni kontraktların bağlanması ilə reallaşır".

Ekspert diqqət çəkib ki, 2021-ci il girəndən bəri Azərbaycan tərəfi hərbi-texniki əməkdaşlıqlar üçün yeni bazarlara çıxış əldə etmək istəyir: "İsraillə, Türkiyə ilə birgə silah istehsalı da gündəmdədir. Artıq belə layihəyə start verilib. İsrailin "Meteor Aerospace" şirkəti Xəzər Gəmiqayırma Şirkəti ilə birgə müəssisə yaradıb, müəssisə "Caspian Meteor" adlanır. Türkiyə ilə də prosesə yaxın zamanlarda başlanılacaq, Türkiyənin Müdafiə Sənayesi İdarəsinin direktoru İsmayıl Dəmir bu barədə mesaj verib".

*A.Kərimov qeyd edib ki, Şuşa Bəyannaməsində də hərbi sahədə birgə layihələrin həyata keçirilməsinin məqsədləri izah olunub:* "Azərbaycan Ordusunun daha da gücləndirilməsinin hədəflərinə gəlincə isə bu, bölgədə sülh və təhlükəsizliyin təmini üçün vacibdir. Təhdidlərin operativ və çevik şəkildə qarşısının alınmasına hesablanıb, ordunun gələcəkdə hər hansı əməliyyatlarında optimallığı təmin edəcək. Orduda peşəkar hərbçilərin sayı çoxalacaq. Struktur islahatları həm də o deməkdir ki, Nəcməddin Sadıkova bağlı şəxslər hamısı vəzifəsinə "əlvida" deyəcək".

**İsmayıl**

# “Dövlət və dördüncü hakimiyyət”

## Kitab müasir media nəzəriyyələrində mövcud olan dilemmaların həlli üçün konsepsiyadır



**Müşfiq Ələsgərli,
Jurnalistlərin Həmkarlar İttifaqının sədri,
media eksperti**






Müasir media nəzəriyyələrində KİV-lərin, jurnalistlərin missiyaları barədə fikir birmənalıdır, konkretdir. 1992-ci ildə qəbul edilmiş "Azad, müstəqil və plüralist medianın inkişafı üzrə Vindhuk Bəyannaməsi", həmçinin, 1997-ci ildə qəbul edilmiş "Müstəqil və plüralist medianın təşviqi haqqında Sofiya Bəyannaməsi" medianın bir çox sahələri ilə yanaşı, həm də jurnalistlərin funksiyalarını ehtiva edirlər.

Bu iki bəyannamə KİV-in, jurnalistin missiyası barədə müxtəlif nəzəriyyələrdə mövcud olan çoxsaylı fikirləri ümumiləşdirir, qısa, lakonik tərzdə ifadə edir. Adı çəkilən hər iki sənəddə Birləşmiş Millətlər Təşkilatı tərəfindən 1948-ci ildə təsdiqlənmiş ”Ümumdünya insan hüquqları Bəyannaməsi”nə istinad olunaraq, jurnalistlərin funksiyaları iki mühüm istiqamət üzrə təsnifatlaşdırılır.

Birinci istiqamət ”ictimai maraq kəsb edən məlumatları tapmaq, toplamaq, emal edib cəmiyyətə çatdırmaqdır”. Yəni, jurnalistin, KİV-in əsas missiyası, ictimai vəzifəsi ilk növbədə cəmiyyətə xəbər vermək, məlumatlandırmaq, həqiqəti görmək prosesində cəmiyyətə kömək etməkdir.

Jurnalistin, KİV-in ikinci mühüm vəzifəsi isə ictimai nəzarətdir. Bu nəzarət ilk növbədə hakimiyyətin və hakimiyyət qollarının üzərində olmalıdır. Müasir nəzəriyyələrə görə, kütləvi informasiya vasitələrinin, jurnalistin əsas işi hakim dairələrin fəaliyyətinə nəzarət etməkdir, nöqsanları aşkar etmək və göstərməkdir. Jurnalistikanın ”dördüncü hakimiyyət” rolunda çıxış etməsi anlayışı da bu vəzifəsindən irəli gəlir. Jurnalistika bu funksiyasına görə hakimiyyətin qanunvericilik, icra və məhkəmə sistemi kimi üç böyük institutundan sonra, cəmiyyətdə ”dördüncü hakimiyyət” kimi qiymətləndirilir.

Bu iki məqam KİV-ə, jurnalistikaya baxış kontekstində daha bir istiqaməti ortaya çıxır. İlk iki istiqamət KİV-in, jurnalistin missiyasını, hakimiyyətə yanaşmasını ehtiva edirsə, üçüncü istəqamət əksinə, hakimiyyətin, dövlətin KİV-ə, jurnalistikaya, informasiya azadlığına münasibətini ehtiva edir. Tarix, təcrübə göstərir ki, ayrı-ayrı dövlətlərin, o cümlədən, ayrı-ayrı nəzəriyyələrin söz və ifadə azadlığına, aşkarlığa, KİV-lərin müstəqil davranışına, azad informasiya axını prinsipinə yanaşmaları birmənalı deyil. Bu mövzuya münasibətdə fikirlər parçalanır və bəzən antaqonist hal alır. Dövlətin, hakimiyyətin mediaya yanaşması mövzusunda fikir parçalanmasının nəticəsi olaraq, beynəlxalq media nəzəriyyələri də bölünürlər, qollara ayrılırlar, bir-birindən fərqlənirlər. Mövcud dörd beynəlxalq media nəzəriyyəsinin hər birində mövzu üzrə suallara müxtəlif yanaşmalar var. Hətta bəzən suallar dilemma xarakteri alır, cavabsız buraxılırlar.

Dövlətin, hakimiyyətin KİV-ə, jurnalistikaya münasibəti necə olmalıdır? İnformasiya axını tamamilə sərbəst buraxılmalıdırmı, yoxsa dövlətin tənzimləyici müdaxiləsi olmalıdırmı? Bu və digər suallar hələ də müzakirə mövzusudur, müxtəlif yanaşmalar var. Tanınmış jurnalist və media qurucusu, Azərbaycan Jurnalistlərinin Həmrəyliyi Komitəsi İctimai Birliyinin sədri Mədət Məmmədovun müəllifliyi ilə çap olunmuş ”Dövlət və dördüncü hakimiyyət” adlı kitab bu yöndə suallara cavab tapmaq üçün konsepsiya rolunu oynayır.

Mədət Məmmədov Azərbaycanın dövlət müstəqilliyinin ilk onilliyində, 1990-cı illərdə Mətbuat və İnformasiya Nazirliyinin Kütləvi İnformasiya Vasitələri Baş İdarəsinə rəhbərlik edib. Bu mühüm vəzifəni daşıması imkan verib ki, müəllif özünün nəzəri biliklərini təcrübi proseslərlə uzlaşdırsın, dövlət və media münasibətlərinin tənzimlənməsi barədə orijinal fikirlərini təqdim etsin.

Bəllidir ki, 1990-cı illər Azərbaycan həyatında keçid dövrü olubdur. Həyatın bütün sahələri kimi, media da bir nəzəri-ideoloji sistemdən digərinə keçid edibdir. Öncəki rejimin- Sovet sisteminin, kommunizm ideologiyasının mediaya baxışı fərqli idi. Leninin təbirincə desək, mətbuata ”ən gözəl təbliğat və təşviqat vasitəsi” kimi baxılıb. Demokratik dünya isə mediaya təbliğatdan uzaq, hadisə və faktlar üzrə məlumatlandırma vasitəsi kimi yanaşıbdır.

Sovet sistemi medianı öz siyasətinə tabe etmək, təbliğat və təşviqat vasitəsinə çevirmək üçün güclü mexanizmlər qurub, inzibati idarələr formalaşdırıb, KİV üzərində rəsmən senzura mövcud olub. Azərbaycan öz müstəqilliyini elan etdikdən, demokratik dünya düzəninə inteqrasiya etməyə başlayandan sonra isə bu mexanizmlərdən qurtarmaq, müstəqil, demokratik yönümlü media formalaşdırmaq asan başa gəlməyib. Yeni mexanizmlər qurulmadan, 70 il müddətində hakim olmuş düşüncəni dəyişmədən mövcud strukturları dağıtmaq, tələm-tələsik ”yeni sistemə keçməyə” can atmaq isə fayda deyil, ziyan gətirib. Biz bunun acı nəticələrini 1992-93-cü illərdə görmüşük. Mövcud mexanizmlərin sürətlə dağıdılması mediaya ”azadlıq deyil, anarxiya gətirdi”; mətbuat ölkədə hərcmərclik yaradanların əlində alətə çevrildi. Bu baxımdan deyə bilərik ki, yaranmış xaotik durumu dəyişmək, dövlət- media münasibətlərini sistemə salmaq, Azərbaycana azad ruhlu, demokratik yönümlü media mühiti qurmaq Ümummilli Lider Heydər Əliyevin Azərbaycana qayıdışından, 1993-cü ildən sonra başlayıb. Məhz onun hakimiyyəti dövründə Azərbaycan mediasının dünya media məkanına normal inteqrasiya etməsi, demokratik dünyanın media standartlarına uyğunlaşması üçün hüquqi baza yaradılıb.

Ümummilli Lider Azərbaycanda medianın totalitar sistemdən demokratik sistemə normal keçidini təşkil etmək üçün çoxsaylı addımlar atıbdır. Bu sırada nəzəri hazırlıqlı, vətənpərvər ruhlu insanları medianı tənzimləyən qurumlarda vəzifələrə təyin edilmələri faktı da var. Mədət Məmmədovun belə bir dönəmdə Mətbuat və İnformasiya Nazirliyinin Kütləvi İnformasiya Vasitələri Baş İdarəsinə rəhbər təyin edilməsi təsadüfi xarakter daşımır.

1995-ci ildə Ümummilli Liderin iradəsi ilə qəbul edilmiş Konstitusiyamız müstəqil Azərbaycan dövlətinin müstəqil, demokratik, beynəlxalq standartlara cavab verən mediasının ilk hüquqi tənzimlənmə sənədi olub. Sonradan Konstitusiyaya uyğun olaraq, növbəti addımlar atılıb.

1998-ci ildə Azərbaycanda media üzərindən senzura qaldırılıb. 70 il müddətində senzuranın nəzarəti altında fəaliyyət göstərmiş KİV-ləri senzurasız dövrə, müstəqil fəaliyyət sferasına keçirmək, yeni dövrün tələblərinə uyğunlaşdırmaq iradə, təmkin, dərin siyasət tələb edir. Ümummilli Lider də bu iradəni, bu təmkini göstərə bilib.Media senzuralı dövrdən çıxarılaraq senzurasız dövrə mərhələlərlə keçirildiyi üçün ciddi kataklizmlər yaşanmadı, ölkə maraqlarına ziyan gəlmədi.

Mədət Məmmədov özünün ”Dövlət və dördüncü hakimiyyət” kitabında bu proseslərin sistemli təsvirini verib.Kitabda yer tutan ”Postsovet məkanında müstəqil media quruculuğunun Azərbaycan modeli” başlıqlı məqalədə qeyd edilib ki, 1999-cu ildə Azərbaycanda KİV haqqında yeni qanun qəbul edilib.Həmin qanun öz dövründə media sahəsində Avropa məkanı üçün ən demokratik ruhlu qanun sayılıb. Məhz Ulu Öndər Heydər Əliyevin liderliyi ilə postsovet məkanında ilklərdən biri olaraq Azərbaycanda 2001-ci ildə media üzərində dövlət tənzimləmə mexanizmi aradan qaldırılıb, Mətbuat və İnformasiya Nazirliyi ləğv edilib, əvəzində mediaya özünütənzimləmə mexanizmi tətbiq edilib. Bu, həmən dövr üçün çox riskli sayılan addım idi, indi də əksər ölkələr bu riski yaşamaqdan çəkinirlər. Bu günə qədər bir sıra postsovet ölkələrində hələ də media üzərində dövlət tənzimləyici mexanizmləri qalmaqdadır. Məhz Ümummilli Lider Heydər Əliyevin səriştəli yönləndirməsi ilə media dövlət tənzimləməsindən özünütənzimləmə mexanizminə keçə bildi.

Mədət Məmmədov Prezident Heydər Əliyevin media siyasətini təsvir etməklə, dövlətin dördüncü hakimiyyətə-jurnalistikaya yanaşmasına örnək verir. O, kitabda dərc edilmiş məqalələrində Heydər Əliyevin, yəni dövlətin və dövlət başçısının mediaya yanaşmasına dair çoxsaylı nümunələr göstərir. Qeyd edir ki, Heydər Əliyev medianın hüquqi bazasını formalaşdırmaqla yanaşı, müstəqil medianın iqtisadi-maliyyə dayaqlarının möhkəmləndirilməsi üçün də gərəkən addımları atıb. Məhz Heydər Əliyevin şəxsi göstərişi ilə mətbuat qurumlarının dövlət müəssisələrinə, xüsusən nəşriyyata olan borcları silinib. Bununla da Azərbaycan mediası nəinki demokratik quruluş, müstəqil inkişaf yolu tutub, eyni zamanda, möhkəm iqtisadi dayaqları olan milli ruhlu mediaya çevrilib. Mədət Məmmədovun ”Dövlət və dördüncü hakimiyyət” kitabı müstəqil, demokratik, həm də milli ruhlu, sosial məsuliyyətini dərk edən media formalaşdırmağın mexanizmlərini təqdim edir; Heydər Əliyevin media siyasəti fonunda bunun konkret nümunəsini verir. Kitabda qeyd edilir ki, Ulu Öndər Heydər Əliyev media ilə dövlət qurumları arasında sağlam dioloq aparılmasının ənənəsini yaradıb. ”O, media təmsilçiləri ilə intensiv şəkildə görüşərdi və görüşdə qaldırılan problemlərin operativ şəkildə həll edilməsinə göstəriş verərdi”.

Müəllif kitabda Prezident İlham Əliyevin media siyasətinə də geniş yer ayırıb. Qeyd edib ki, Prezident İlham Əliyev Ümummilli Liderin media siyasətini həssaslıqla davam etdirir, ona yeni rəng, çalarlar qatmaqla inkişaf etdirir.

Bəllidir ki, 2003-cü ildən etibarən, Azərbaycanda müstəqil, demokratik yönlü media quruculuğunu sürətləndirmək, Azərbaycan mediasını müasir dünyanın yeni çağırışlarına uyğunlaşdırmaq üçün çoxsaylı fərman və sərəcamlar verilib. 2003-cü ildə medianın özünütənzimləmə mexanizmləri qurulub; elektron medianın fəaliyyətini tənzimləmək üçün Milli Televiziya və Radio Şurası, çap və onlayn medianın fəaliyyətini tənzimləmək üçün Mətbuat Şurası yaradılıb. Medianın özünütənzimləmə mexanizmlərinin nümunəsi dünyanın inkişaf etmiş, demokratik ölkələrində mövcuddur. Postsovet məkanında isə özünütənzimləmənin ənənəsi olmayıb.İlham Əliyev Postsovet məkanında medianın özünütənzimləmə mexanizmini tətbiq etdirən azsaylı dövlət başçılarındandır.Postsovet ölkələrinin əksəriyyətində, Rusiya Federasiyası başda olmaqla, bu gün də media üzərində dövlət tənzimləyici qurumları, nazirliklər qorunub saxlanılır.

Prezident İlham Əliyev mediada özünütənzimləmə mexanizmlərini tətbiq etməklə yanaşı, medianın iqtisadi müstəqiliyinin formalaşdırılması üçün də çoxsaylı sərəncamlar imzalayıb. Bu baxımdan 2008-ci ildə qəbul edilmiş ”KİV-in inkişafına dövlət dəstəyi Konsepsiyasını” misal göstərmək olar. Prezident İlham Əliyev Azərbaycan KİV-lərinin inkişafına yardım üçün ixtisaslaşmış donor institutu yaratmış ilk postsovet ölkəsi rəhbəridir.

Mədət Məmmədov ”Dövlət və dördüncü hakimiyyət” kitabında Prezident Heydər Əliyevin və İlham Əliyevin media siyasətini təsvir etməklə göstərir ki, bu siyasət Azərbaycanda demokratik, milli ruhlu media mühitini formalaşdırmaqla yanaşı, həm də, Sovet sistemindən çıxmış, demokratik, müstəqil quruculuq yolu tutmuş bütün dövlətlər üçün bir örnək, nümunə oldu. ”Bu gün nəzər yetirsək görərik ki, hansı postsovet ölkələr ki, Heydər Əliyevin hərəkətlərini təqlid ediblər, demokratik inkişafı hüquqi tənzimləmə ilə uyğunlaşdırıblar, həmin ölkələrdə inkişaf, sabitlik və firavanlıq var. Hansı ölkələr ki, fərqli yollar seçiblər, onlarda qeyri-sabitlik, narazılıq və geriləmə var”- deyə kitabda qeyd edilir.

# Birgə təlimlərin siyasi əhəmiyyəti böyükdür



## Bu, regionda yolunu azan qüvvələrə bir mesajdır ki, Azərbaycan və Türkiyə ilə münasibətlərdə mümkün qədər diqqətli, ehtiyatlı olsunlar

Azərbaycan ilə Türkiyə arasında bağlanmış hərbi sahədə əməkdaşlıq haqqında sazişə əsasən iyunun 28-dən Bakıda "Mustafa Kamal Atatürk - 2021" birgə döyüş atışlı taktiki təlimi başlayıb. İyunun 30-dək davam edəcək təlimə 600 nəfərədək şəxsi heyət, 40-dək tank və digər zirehli texnika, 20-dək müxtəlif çaplı artilleriya qurğusu və başqa texnikalar cəlb olunub.

Müdafiə Nazirliyindən verilən məlumata görə, Azərbaycan və Türkiyə hərbçilərinin iştirakı ilə keçirilən təlimin əsas məqsədi döyüş əməliyyatlarının aparılması zamanı iki ölkə ordularının bölmələrinin qarşılıqlı fəaliyyətinin təkmilləşdirilməsidir. Həmçinin, komandirlərin hərbi qərar qəbuletmə və bölmələri idarəetmə bacarıqlarının inkişaf etdirilməsidir. Bundan əvvəl, türk qoşunları ilə Azərbaycanın Naxçıvanda yerləşən hərbi bölmələri arasında birgə xüsusi taktiki təlimlər iyunun 21-dən 23-dək keçirilib. Eyni zamanda ötən günlərdə Azərbaycan hərbi pilotlarının iştirakı ilə Türkiyənin Konya şəhərində keçirilən "Anadolu Qartalı-2021" beynəlxalq taktiki-uçuş təlimi baş tutub. Təlimdə Azərbaycan Hərbi Hava Qüvvələrinin uçuş heyəti şərti düşmənin yer və hava hədəflərinin məhv edilməsi üzrə növbəti döyüş tapşırıqlarını icra ediblər. Hər zaman olduğu kimi Türkiyə-Azərbaycan birgə təlimləri həm Ermənistan, həm də onun havadarları tərəfindən narahatlıq və isterika içində izlənilməkdədir. Erməni mediası qardaş Türkiyə ilə ortaq təlimləri yeni müharibə ehtimalı kimi dəyərləndirir, Zəngəzur bölgəsində yeni savaş ocağına hazırlıq getdiyini iddia edirlər. Revanşistlər hərbi təlimlərə diqqət çəkərək Rusiyanı daha "diqqətli" olmağa səsləyirlər.

**Hərbi ekspert, ehtiyatda olan polkovnik Üzeyir Cəfərov "Şərq"ə deyib ki, Şuşa Bəyannaməsindən sonra ikinci birgə hərbi təlimlər keçirilir.** Ekspertin sözlərinə görə, Türkiyədə keçirilən "Anadolu Qartalı-2021" və "Mustafa Kamal Atatürk-2021" hərbi təlimləri çox önəmlidir: "Birgə hərbi təlimlərin sayı daha da çoxalacaq. Sadəcə qardaş Türkiyə ilə deyil, həm də Pakistanla birgə, üçlü təlimlər nəzərdə tutulur. Müdafiə Nazirliyinin məlumatına əsasən, sentyabr ayında üç ölkənin hərbi təlimləri keçiriləcək. Əlbəttə, birgə təlimlərin siyasi əhəmiyyəti də var. Təlimlər regionda yolunu azan qüvvələrə bir mesajdır ki, Azərbaycan və Türkiyə ilə münasibətlərdə mümkün qədər diqqətli, ehtiyatlı olsunlar. Azərbaycan Ordusu 44 günlük savaşda ortaya çox gözəl bir nəticə qoydu. Təlimlərin özəlliyi həm də ondan ibarətdir ki, bu təlimlərdə döyüş qabiliyyətinin yeni elementləri sınaqdan keçirilir, müasir silah-sursatlar tətbiq olunur və s. Sentyabrda baş tutacaq üçtərəfli hərbi təlimlər sırf dağ şəraitində qoşunların birgə fəaliyyətini təmin etməkdir".

**Ü.Cəfərov qeyd edib ki, birgə təlimlər heç kimə qarşı yönəlməyib:** "Sırf döyüş qabiliyyətimizin artırılması ilə bağlı təlimlərdir. Məqsəd hərbçilərimizin döyüş ruhunu daha da yüksəltmək, bacarıqlarını inkişaf etdirməkdir. Rəsmi Bakı dəfələrlə bəyan edib ki, Azərbaycan Ordusu öz gücünü artırmaq, silahlı qüvvələri inkişaf etdirmək üçün davamlı addımlar atacaq".

**İsmayıl Qocayev**

# "Səsimizə səs verildi"

## Qarabağ qazisi Ali Baş Komandana minnətdarlıq edib



**Şəhid ailələri, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzləri yaradılacaq. Bununla bağlı Prezident İlham Əliyev müvafiq Fərman imzalayıb.**

Məqsəd onlara əmək, məşğulluq, sosial müdafiə, tibbi-sosial ekspertiza, reabilitasiya, müalicə, müayinə, eləcə də digər sahələrdə göstərilən xidmətlərin keyfiyyətini yüksəltməkdir. Vətəndaş məmnunluğunun təmin edilməsi, dövlət orqanlarının fəaliyyətində səmərəliliyin, şəffaflığın artırılması, habelə xidmətlərin vahid məkandan təxirəsalınmaz və operativ icrasını təmin etmək də əsas hədəflərdəndir.

**"Qarabağ qaziləri" İctimai Birliyinin mətbuat xidmətinin rəhbəri, Qarabağ qazisi, jurnalist Rey Kərimoğlu yeni mərkəzin hansı formada fəaliyyət göstərəcəyinə dair fikirlərini "Şərq"lə bölüşüb.**

"Cənab Prezident daimi şəhid ailələri və qazilərə dəstək olub. Ali Baş Komandan şəhid ailələri və qazilərin həyatı üçün çox vacib sənədlər imzalayıb, vəsaitlər ayırıb. "Qarabağ Qaziləri" İctimai Birliyi də bu sahədə peşəkar və ixtisaslaşmış bir təşkilat kimi böyük təcrübəyə malikdir. Birlik olaraq belə bir mərkəzin yaradılması üçün cənab Prezidentə müraciət etmişdik.

Çox sevinirik ki, səsimizə səs verildi və çox gözəl bir fərman imzalandı. Şəhid ailələri, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərində göstərilən xidmətlərin siyahısı qeyd olunub.

Həmçinin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi həmin siyahıda nəzərdə tutulmuş dövlət orqanlarının müxtəlif xidmətlər üzrə fəaliyyətinin əlaqələndirilməsi müəyyən edilib.

Ümid edirik ki, bu fərman şəhid ailələri, Qarabağ əlilləri və onlara bərabər olan vətəndaşlarımızın həyatında böyük önəm daşıyacaq. Belə bir fərman imzaladığı üçün Ali Baş Komandana minnətdarlığımızı bildiririk ki, bizə diqqət və qayğı göstərir".

**Yeganə**


**TÜRKİYƏ RESPUBLİKASI**
**ANKARA ŞƏHƏR**
**8 NÖMRƏLİ AİLƏ MƏHKƏMƏSİ**

İşin nömrəsi: 2020/ 843 Əsas

**BİLDİRİŞ ELANI**

İddiaçı RECEP KILINÇ iləcavabdeh SHOHLA ATAKISHIYEVA (ŞohlaAtakişiyeva) arasındakıməhkəməmizdəbaxılan Nikahın pozulması (Ailəittifaqınınbünövrəsindən sarsılması səbəbiilə nikahın pozulması (Mübahisəli boşanma)) haqqındakı mülki iş üzrə; Cavabdehinailəittifaqınıntələblərinəuyğunöhdəlikləriyerinəyetirməməsi, müştərəkevdənçıxıbgetməsivəqayıdıbgəlməməsisəbəblərinəgörə nikahın pozulmasıvə 50.000 Türk lirəsimənəvitəzminataqərarverilməsitələbiüzrəmübahisəqaldırılmışdır.

CavabdehSHOHLA ATAKISHIYEVAya bildiriş sənədigöndərilməsi mümkün olmadığına görəvə bütün araşdırmalarabaxmayaraq yaşayış yeri, qeydiyyatünvanıvə iş yerinin təsbitedilməsi mümkün olmadığından Mülki ProsessualMəcəllənin (HMK) 122., 127. Və 128. Maddələrinəmüvafiqolaraq iddia ərizəsininmətbuat yolu iləbildirilməsindənetibarən iki həftəərizəsindəcavabverməli olduğu, əgərmüddətiərzindəcavabərizəsivermədiyitəqdirdəirəlisürülənfaktlarınhamısını inkar etmiş sayılacağı mətbuat yolu iləxəbərdarlıq olunur və bildirilir.

BildirişlərHaqqındakıQanunun 31-ci maddəsinəmüvafiqolaraq elan tarixindənetibarən 7 gün keçdikdən sonra Bildiriş sənədininmətbuat yolu ilə bildirilmiş sayılacağı xəbərdarlıq olunur.



**ELAN**

**TÜRKİYƏ RESPUBLİKASI OSMANİYE 1-Cİ AİLƏ MƏHKƏMƏSİ**

ƏSAS NO : 2014/618 Əsas
İDDİAÇI : ŞƏBNƏM ƏLİZADƏ, (atasının adı ƏliyevMirkəlamvə anasının adı Vəliyeva Təranə; 19/03/1992 təvəllüdlü) Lənkəranşəhəri, V.Hüseynovküç. D.Z., Azərbaycan

İddiaçı Yılmaz Yeniçeri tərəfindənəleyhinizəqaldırılan Nikahın sonlandırılmasına (AiləİttifaqınınKökündən Sarsılması Səbəbiilə Boşanma Prosesi (Münaqişəli)) dair iddiası ilə bağlı aparılan mühakiməprosesində;

Məhkəməniztərəfindən iddia ərizəsivə ilkin icraat hesabatınıntəqdim olunması haqqındatələbnamə yazıldığı, AzərbaycanSəlahiyyətliOrqanlarıtərəfindən aparılan yoxlama zamanı qeyd olunan ünvandaqeyd olunan şəxs yaşamadığına görə bildiriş vərəqinintəhfilverilmədiyibildirildikdən sonra məhkəməmiztərəfindən elan edilərəkbildirilmə metodu ilə iddia ərizəsivə ilkin icraat hesabatınıniddiaçıyatəhfilverildiyiaydınlaşdırılmışdır. Məhkəməiclas günü və şifahi mühakiməyəkeçidediləcəyibarədəqərarın elan olunaraqbildirilməsibarədəqərarqəbuledilmişdir.

İddiaçı Yılmaz Yeniçeri tərəfindənəleyhinizəqaldırılan Nikahın sonlandırılmasına dair iddiada; Araşdırmanın başa çatdığıməhkəməiclasında şifahi mühakiməyəkeçidediləcəyi, şifahi mühakimə üçün məhkəməiclasınıntəxirə salınması halında tərəflərəxüsusidəvətnaməgöndərilməyəcəyivəHüquqMühakiməqanununun 150-ci maddəsindəqeyd olunan hökümməxfisaxlanılmaqsurətilə, qaibolduqları zaman hökümqəbulediləcəyi, iclasda yalnızca bir tərəfin iştirak etməsivə iştirak edəntərəfinmühakiməyə davam etməkistəməsi halında iştirak etməyəntərəfinqaib olduğu hallarda aparılan proseslərəetirazetməyəcəyi, iclasatərəflərin gəlməməsi halında işin ləğvediləcəyivəməhkəməiclasının 01/07/2021 tarixinə saat 09:00-a təyinedilməsihaqqındaqərarqəbuledildiyiaydınlaşdırılaraq, HüquqMuhakiməQanununun 138.MD GÖRƏ MƏHKƏMƏ İCLASININ TARİXİ VƏ SAATI bildiriş vərəqiniəvəzetmək üçün ELANLA BİLDİRİLİR.

**24/02/2021**

# “Mən bilirəm ki, Qarabağ Azərbaycanındır”



## 13 nəfərlik erməni silahlı birləşmənin üzvü məhkəmədə ifadə verib

**Bakı Apellyasiya Məhkəməsində terror törətmək məqsədilə Azərbaycan ərazisinə keçən daha 13 nəfərlik erməni silahlı birləşməsinin cinayət işi üzrə məhkəmə prosesi keçirilib.**

Trend-in məlumatına görə, proses Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi Eldar İsmayılovun sədrliyi ilə keçirilib.

Prosesdə məhkəmə tərkibi və dövlət ittihamçısı təqsirləndirilən şəxslərə təqdim edilib. Daha sonra məhkəmə təqsirləndirilən şəxslərin hüquqlarını izah edib. Hakim bildirib ki, təqsirləndirilən şəxslər ifadə verməkdən imtina, məhkəmə və dövlət ittihamçısına etiraz edə bilər.

Prosesdə təqsirləndirilən şəxslər bildiriblər ki, onların ibtidai istintaqdan və saxlanma şəraitlərindən narazılıqları yoxdur.

Dəstə üzvlərinə saxlandıqları müddətdə heç bir təzyiq olunmayıb.

Daha sonra məhkəmə istintaqı başlanıb. Dövlət ittihamçısı ittiham aktını elan edib.

İttihamda qeyd olunub ki, təqsirləndirilən şəxslər qanunsuz şəkildə odlu silah, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə edərək qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələr yaradıblar.

Sözügedən şəxslər ötən il noyabrın 17-də dövlət sərhədini qanunsuz keçərək Xocavənd rayonunun Hadrut qəsəbəsindəki meşəlik ərazilərdə yerləşiblər.

Onlar ötən il dekabrın 13-nə qədər həmin ərazilərdə terror-təxribat törədiblər. Belə ki, ittiham olunan şəxslər habelə ayrı-ayrı şəxslərə silahlı basqınlar edib, ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq, Azərbaycan dövlət hakimiyyət orqanları və beynəlxalq təşkilatlar tərəfindən qərar qəbul edilməsinə təsir göstərmək məqsədilə insanların həlak olması, onların sağlamlığına zərər vurulması, əhəmiyyətli əmlak ziyanının vurulması və başqa ictimai təhlükəli nəticələrin baş verməsi təhlükəsi yaradan partlayış, yanğın və digər terror əməlləri törədiblər.

Hakim qarşısına çıxarılan təqsirləndirilən qrupa qarşı Cinayət Məcəlləsinin 214-cü (terrorçuluq), 228-ci (qanunsuz olaraq silah və partlayıcı maddələr əldə etmə, saxlama) 279-cu (qanunsuz silahlı birləşməkdə qruplar yaratma, onların təkibində döyüşməkdə), 318-ci (dövlət sərhədini qanunsuz keçmə) maddələri ilə ittiham irəli sürülüb.

Prosesdə fasilə elan olunub.

Fasilədən sonra ittiham aktının elanı başa çatıb. Daha sonra təqsirləndirilən şəxslərə sərbəst ifadə vermək təklif olunub.

**Prosesdə ifadə verən təqsirləndirilən dəstə üzvü Haykaz Hovanisyan bildirib ki, noyabrın 25-də hərbi hissəyə çağırılıb və silahla təmin edilərək Laçına, oradan da Hadruta göndərilib:** ”Bizə dedilər ki, sərhədimizi qorumağa gedirsiniz və posta göndərdilər. Dekabrın 13-də Arsen Kazaryan bizim dəstə rəhbərinə zəng etdi ki, ordan düşün, bizim torpaqlar deyil. Aşağı düşərkən Azərbaycan hərbçiləri bizi saxladılar, silahlarımızı aldılar. Ermənistanın kapitulyasiya aktı imzalamasını bilirdim, amma aktın məzmunundan məlumatım yox idi”.

*Prokurorun suallarını cavablandıran dəstə üzvü bildirib ki, onlar saxlanılmamışdan bir gün əvvəl Azərbaycan hərbçiləri erməni silahlı dəstəsinə ərazidən çıxmağı tapşırsa da onlar bu göstərişə əməl etməyib. Nəticədə Azərbaycan hərbçiləri onları saxlayıb:* ”Müharibə bitməsini bilirdik, amma bilmirdik ki, Azərbaycan Qarabağı qaytarıb. Bizə demişdilər müharibə bitib, amma hansı ərazinin bizdə olduğunu demirdilər. Mən bilirəm ki, Qarabağ Azərbaycanındır. Hərbi xidməti də Azərbaycan ərazisində keçdiyimi bilirdim, buna məcbur idim. Çünki komissarlıq məni hərbi xidmətə ora göndərmişdi”.

*Proses iyulun 2-də digər təqsirləndirilənlərin sərbəst ifadəsi ilə davam etdiriləcək.*



## Laçında yol qəzasında həlak olan hərbçilər Sumqayıtda dəfn olunub

**İyunun 28-də Laçın rayonu ərazisində hərbi yük avtomobilinin qəzaya uğraması nəticəsində həlak olan hərbçilər Sumqayıtda dəfn olunub.**

Kiçik çavuş Zeynallı Coşqun Çingiz oğlu və əsgər Rəhimli Orxan Elxan oğlu Sumqayıt Şəhidlər xiyabanında torpağa tapşırılıb.

Qeyd edək ki, iyunun 28-də günorta saatlarında Laçın rayonu ərazisində yol-nəqliyyat hadisəsi baş verib. (apa)

Müdafiə Nazirliyinin məlumatına görə, ”KamAZ” markalı hərbi yük avtomobilinin qəzaya uğraması nəticəsində Azərbaycan Ordusunun müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları - kiçik çavuş Zeynallı Coşqun Çingiz oğlu və əsgər Rəhimli Orxan Elxan oğlu həlak olub.

*Faktla əlaqədar cinayət işi başlanıb, araşdırma aparılır.*

## Daha 87 nəfər koronavirusa yoluxub, 3 nəfər ölüb

### Azərbaycanda 70 nəfər müalicə olunaraq sağalıb

**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 87 yeni yoluxma faktı qeydə alınıb, 70 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan ”Şərq”ə verilən məlumata görə, 3 nəfər ölüb.

Azərbaycanda indiyədək ümumilikdə 335 961 nəfər koronavirus infeksiyasına yoluxub. Onlardan 330 193 nəfər müalicə olunaraq sağalıb, 4 973 nəfər vəfat edib, aktiv xəstə sayı 795 nəfərdir.

*Ölkədə son sutka ərzində 7238, hazırkı dövrədək isə 3 740 432 test aparılıb.*

# Təhsil naziri iradlarında tamamilə haqlıdır

"Azərbaycan təhsilinin qarşısında duran vacib çağırışları həll etmək baxımından "Ali təhsil haqqında" qanun layihəsi mühüm əhəmiyyət kəsb edir". Bunu Təhsil naziri Emin Əmrullayev Milli Məclisdə "Ali təhsil haqqında" qanun layihəsinin müzakirələri zamanı deyib. Nazir bildirib ki, ali təhsilin əlçatanlığı, bərabər imkanların əldə edilməsi diqqətdə olan məsələlərdir:

”Bundan başqa, qəbul zamanı testə düşən suallarla bağlı bəzi məqamlar bizi narahat edir”. O qeyd edib ki, Azərbaycanda artıq yaradılmasının 100 illiyini qeyd edən ali təhsil sistemi mövcuddur: ”Bu baxımdan ənənələrimiz və bizə qalan miras var. Amma həyat sürətlə inkişaf edir və yenilikləri də özü ilə gətirir. Biz yeni qanun layihəsini ortaya qoymaqla təhsilin pillələri və səviyyələri anlayışlarından imtina etmirik. Təhsilimizdə təsnifat mütləq lazımdır”. Təhsil naziri vurğulayıb ki, burada üç əsas məqam var: ”Belə ki, qanun layihəsinin böyük hissəsi ənənələrə söykənir. Tədqiqatlar, araşdırmalar, mütəxəssislərin rəyləri məsələnin ikinci tərəfidir. Bir də məsələnin emosional tərəfi var. Seçim zamanı əsas hədəf şəffaflığın təmin olunmasıdır”.

> “Biz son illər görürük ki, qəbul imtahanlarında istifadə edilən test tapşırıqlarının modelləri qəlizləşib”

**Məsələ ilə bağlı təhsil eksperti Kamran Əsədovun fikirlərini öyrəndik. Ekspert ”Şərq”ə açıqlamasında bildirib ki, Təhsil naziri Emin Əmrullayev bu iradda haqlıdır:** ”Belə ki, son illər qəbul imtahanlarında istifadə edilən test tapşırıqları orta ümumtəhsil məktəblərinin proqramında şagirdlərə verilən biliklərin məzmunundan daha fərqli formatda tərtib edilib. Çünki test tapşırıqlarını hazırlayan mütəxəssislər bir çox hallarda orta ümumtəhsil məktəblərində çalışmırlar. İkinci burda ən vacib məqam test tapşırıqlarındakı distraktorlar şagirdlərin yaş xüsusiyyətinə və psixologiyasına uyğun deyil. Yəni burda test tapşırıqları hazırlanan zaman daha çox şagirdlərdən diqqət və yaddaş bacarıqları ölçülürsə, orta ümumtəhsil məktəblərində tədris proqramlarında tamamilə fərqli minimum biliklər, eyni zamanda cəmiyyətdə ona qarşı çıxacaq problemli situasiyadan çıxış bacarıqları yoxlanılır”.



## “Şagirdlərin daha çox bilikləri yox, yaddaşları yoxlanılır”

**Təhsil eksperti hesab edir ki, test tapşırıqlarının məzmunu və strukturu ilə bağlı müəyyən sadələşdirilmələr aparmaq lazımdır:** ”Biz son illər görürük ki, qəbul imtahanlarında istifadə edilən test tapşırıqlarının modelləri qəlizləşib. Daha çox şagirdlərin bilikləri yox, yaddaşları yoxlanılır. Ona görə də təhsil naziri bu fikrində tamamilə haqlıdır. Bu bizi birmənalı şəkildə narahat edir. Yəni biz düzgün yoxlama və ölçmə alətlərindən istifadə etmirik. Yaxud da üsul və vasitələrimiz doğru deyil. Hesab edirəm ki, biz qəbul imtahanlarında məhz sualların modellərində müəyyən qədər sadələşdirmələr aparmalıyıq ki, hər kəs üçün ali məktəblərə qəbul olmaq daha rahat olsun”.

**Aynurə Pənahqızı**



# Pandemiyada dəniz avantajdır

## Ancaq illərdir Xəzərə kasıb insanların yolu bağlanıb

Hava yollarının qapalı olması nə qədər başadüşülləndirsə, dəniz yolunun bağlanması bir o qədər anlaşılmazdır. İllərdir Xəzər dənizinə insanların yolu bağlanıb. Dəniz sahili istila edilib, ona görə. Yayın qızmarında çimərliklərdə istirahət etmək istəyənlərin qarşısı gah daş hasarlarla, gah şlaqbaumla, gah da baha qiymətlərlə kəsilir.

Xəzər sahili boyunca elə keçirilərək özəlləşdirilmiş ərazilərdə tikilmiş istirahət mərkəzlərində qiymət bahalığı səbəbindən sıravi vətəndaşların istirahət etməsi mümkünsüzdür. Çarə qalır "Şıx", "Sahil", Qaradağ istiqamətindəki "el çimərlikləri"nə, oralarda isə dəniz suyu o qədər çirkli, natəmizdir ki, immunitet qazanmaq yox, əksinə, xəstələnmək ehtimalı daha böyükdür. Dənizi insanların üzünə açmaq problemi niyə illərdir həllini tapmır?

**Vətəndaş Cəmiyyətinə Yardım Assosiasiyası Seçki Qərargahının rəhbəri, professor Məhərrəm Zülfüqarlı "Şərq"ə açıqlamasında qeyd edib ki, dəniz sahilinin qapadılması yaralı yerimizdir:**

- Bu problem uzun illərdir həll edilmir. Hər il, xüsusən də yay mövsümündə bu haqda danışılır, deyilir, etiraz edilir, həmçinin təkliflər də səsləndirilir, amma yenə də problem həll olunmur. Problemin əsası o zaman qoyuldu ki, sahil zolağı ayrı-ayrı şəxslər tərəfindən özəlləşdirildi və zəbt edildi. Villalar tikildi, istirahət mərkəzləri, restoranlar, otellər, qonaq evləri inşa olundu. Biz bunları deyəndə, bəzən səhv anlaşılır. Guya ki, kimsə ölkədə turizmin inkişafına qarşıdır. Xeyr, belə deyil. Hansı ölkə ərazisində dəniz varsa, ondan maksimum istifadə etməyə, yararlanmağa çalışırlar. Bu, təbiidir. Turizm potensialının artması üçün bu lazımdır. Biz də istəyirik turizm potensialımız artsın, dövlətimiz bundan gəlir əldə etsin. Mehmanxana da lazımdır, otellər də. İstirahət mərkəzləri də. Amma gərək bütün bunlar əhalinin istirahətinin pozulması, istirahət hüququnun tapdanması hesabına edilməsin. Bizdə məhz belədir. Sahil boyu ərazilər imkanlı şəxslər, məmurlar, "sözü, hökmü keçən"lər tərəfindən zəbt edildi. Bu dəfələrlə deyilib ki, Qaradağ yoluyla Bakının taki girişinədək magistral yolla hərəkət etdikcə, bütün sahil boyunun necə hasarlandığı görünür. Dəniz faktiki görünmür. Hasarın o tərəfində dəniz var, yoxdu, bilinmir. Bu insanlara dəniz sahilini bu şəkildə zəbt etməyə kimlər icazə veribsə, onlar məhkəmə qarşısında dayanmalıdır. Onlara niyə, necə ixtiyar verilib ki, sahili bu şəkildə hasarlasınlar? Hamısı şəxsi evlər, şəxsi obyektlərdir. Dəniz sahilində tikinti aparmaqla bağlı normalar müəyyənləşmişdi. Tikinti sahildən neçə metr aralıda aparıla bilər. Normalara əməl edilmədi, "5 metr əvəzinə 15 metr irəlilədilər". Nəticədə dəniz sahili zəbt olundu. İndi istirahət mərkəzləri şlaqbaum qoyub, "Axırıncı aşırım" filmində deyirlər, "bir nəfəri də o tərəfə buraxmırlar". Deyir, buralar mənimdi, içəri keçmək istəyirsən, pulunu ödə, keç. Yenə də yanlış anlaşılmasın. Sahibkarlıq subyektlərinin öz hüquqları var, eyni zamanda vətəndaşın da istirahət hüququ var. İki istirahət mərkəzi varsa, insanların rahat gedib-gələ biləcəyi açıq sahil zolağı, çimərliklər də olmalıdır. Son zamanlar müsbət irəliləyiş budur ki, sosial çimərliklər yaradılır. Mən görmüşəm, Sumqayıt, Novxanı, Corat istiqamətində belə çimərliklər var. Şükür ki, oralar hələ hasara alınmayıb. Əhali istirahət edə bilir. Şəxsi avtomobili ilə gələnlər "parkovka" üçün 1 manat ödəyir, çimərlik ərazisinə keçir. Bunu da mən medianın xidməti hesab edirəm. Mediada bu barədə yazılandan, tənqid ediləndən sonra nisbətən yumşalmalar olub. Amma Bakıda yaşayan birisinin Sumqayıt, Corat çimərliyinə gedəcəyi də inandırıcı deyil. İctimai nəqliyyatla hərəkət etmək dəhşətdi. Şəxsi avtomobili olan üçün də çətin olacaq. Saatlarla tıxacda qalacaq, günün yalnız 1-2 saatını çimərlikdə istirahətə sərf edə biləcək. Bakı əhalisi üçün nisbətən yaxın məsafədə, əlçatan çimərliklər təşkil edilməlidir. Bakı əhalisinin Sumqayıt, Corat çimərliyinə gedişi o zaman asa olar ki, bu ərazilərə elektrik qatarları işləsin. Ümumiyyətlə, bizdə dəniz nəqliyyatı sıfırdır. Düşünürsən ki, axı niyə Lənkərandan, ümumilikdə cənub regionundan dəniz nəqliyyatı vasitəsilə gediş-gəliş yoxdur? Məsələn, Nabrandan Bakıya qədər sahil boyu sosial çimərliklər yaratmaq mümkündür. Elektrik qatarı, yaxud da katerlər vasitəsilə insanlar rahat hərəkət edə bilər. Vətəndaş Bakı Xəzər sahilində katerə minib Nabrana, Qubaya səfər edə bilər. Bu olar həm dəniz gəzintisi, həm də dənzi istirahəti. Dənizin olması bizim üçün avantaj olmalıdır, amma deyil. Çünki dəniz nəqliyyatı yoxdur. Xəzər sahili boyunca H.Z.Tağıyev qəsəbəsindən sonra Yaşma qəsəbəsi gəlir. Orda boş, məskunlaşmamış ərazilər var. Orda məskunlaşma aparıb, sosial çimərliklər yaratmaq olar. Əsas problem nəqliyyatdır. Sahil boyu elektrik qatarları hərəkət etsə, insanlar üçün gediş-gəliş asanlaşar. Sahil boyu ərazilər zəbt edildiyindən sosial çimərliklərə böyük ehtiyac var. Əhalinin böyük hissəsi üçün belə çimərliklər lazımdır. Belə çimərliklər yaransa xalqla dövlət arasında bağlılıq da artar. Yenə də Bakı əhalisi üçün mərkəzə yaxın ərazilərdə sosial çimərliklər olmalıdır. İstirahət mərkəzləri tikilən ərazilər icarəyə verilmiş torpaqlardır. Vaxtilə icarəyə verilib, indi dövlət vətəndaş ehtiyacı üçün o əraziləri geri də ala bilər. Uzun illərdir, torpaqdan istifadə edib gəlir əldə ediblər. Bundan sonra qoy vətəndaşlar istifadə etsin, o ərazilərdən. Nəticə etibarilə torpaq hamınındır, dəniz də hamınındır.

### Sahil boyu ərazilər imkanlı şəxslər, məmurlar tərəfindən zəbt edilib

Dəniz avantajdır, deyirik. Həm də sağlamlıq baxımından. Koronavirus pandemiyasının bitmədiyi, virusun yeni-yeni ştammlarının meydana çıxdığı bir vaxtda insanların immun sisteminin gücləndirməsi vacibdir. Yay mövsümü immun sisteminin gücləndirilməsi üçün əlverişli zamandır. Günəşi, dənizi, qumlu sahili (qalıbsa əgər M.R.) olan ölkə üçün bunlar əlbəttə ki, əlavə imkanlar açır. Mövsümdən maksimum yararlanmaq üçün təbii imkanlar olduğu halda, insan amili - subyektiv amillər bu imkanları əlçatmaz edib.

**"Şərq"ə açıqlamasında Təcili Tibbi Yardım Stansiyasının həkimi Şahvələd Məmmədov qeyd edib ki, pandemiya dövründə pasiyentlərə məsləhətləri immun sistemi bacardıqca gücləndirməkdən ibarət olub:**

- Məlum həqiqətdir ki, immun sistemi güclü olanların virusa yoluxmaq ehtimalı da aşağıdır, yoluxduqda isə xəstəliyi yüngül keçirmək, tez sağalmaq ehtimalı isə böyükdür. Ona görə də biz həkimlər əhaliyə daim bunu məsləhət görürük ki, immun sistemin gücləndirilməsinə çalışsınlar, faydalı qidalar qəbul etsinlər. Yayda isə insana vacib olan günəş şüası, dəniz havası, duzlu su, isti qumdur. Dəniz havasının tərkibində yod elementi var. Bu da immun sistemi gücləndirən elementdir. Ümumiyyətlə, dəniz suyunun tərkibində 72 kimyəvi elementin olduğu deyilir. Yəni dəniz suyunda hansısa az, hansısa çox miqdarda, dünyadakı kimyəvi elementlərin az qala hamısı var. Xlor, natrium, sulfat, maqnezium, kalium, kalsium daha çoxdur. Amma məsələn, Xəzər dənizində, *(əslində dəniz deyil, böyük, axarsız göl olduğu üçün)* duzun səviyyəsi digər dünya dənizlərinə nisbətən azdır. Günəş şüası orqanizm üçün vacib olan D vitamini mənbəyidir. Pandemiya dövründə vitamin D çatışmazlığı olanların daha tez yoluxduğunu gördük, koronavirus testinin cavabları pozitiv çıxmış vətəndaşlara təyin edilən müalicə preparatları arasında vitamin D-yə də xüsusi yer verilirdi. O cümlədən digər vitaminlər də, vitamin kompleksləri təyin edilirdi. Əlbəttə ki, yay mövsümünün imkanlarından maksimum bəhrələnmək lazımdır. İstər dəniz havası, çimərliklər olsun, istərsə də təzə meyvə-tərəvəz. Bu imkan əhaliyə yaradılmalıdır. Lakin əhali çimərliklərdən düzgün istifadəni də bilməlidir. Günün qızmar saatında - 12:00-18:00 arası günəş şüalarının birbaşa təsiri altında qalmaq olmaz. Xüsusən körpələr, azyaşlılar, yaşlı insanlar üçün bu, ziyandır.

**Məlahət Rzayeva**

# Rəşid Mahmudov da xalqın sözünü dedi

## "Toylarla bağlı verilən qərarlar gülünc və mənasızdır"

Xəbər verdiyimiz kimi, iyulun 1-dən etibarən toy, nişan, ad günləri mərasimlərinin keçirilməsinə icazə veriləcək. Daxili İşlər Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polis mayoru Elşad Hacıyev açıqlamasında deyib ki, 50 nəfərlik toylarda oynayarkən maska taxmaq zəruri deyil.

Qurum rəsmisi bildirib ki, 50 nəfərə qədər tədbirlərdə, yəni toy, nişan, ad günü və digər mərasimlərdə tibbi maska tələbi mütləqdir: "Həmin mərasimlərdə COVİD pasportu və immunitet sertifikatı tələb olunmadığına görə, mütləq qaydada tibbi maskadan istifadə edilməlidir. Çünki həmin məkanda yoluxma riski yüksəkdir, orada COVİD daşıyıcıları ola bilər. Bütün bu ehtimallar, eləcə də ÜST və digər ölkələrin təcrübəsi nəzərə alınaraq belə bir qərar verilib ki, vətəndaşlarımızı maksimum dərəcədə bu təhlükədən qoruyaq. Hər birimiz ciddi qaydada bu tələblərə riayət etməliyik. 50 nəfərdən 150 nəfərə qədər olan mərasimlərdə isə maska tələbi yoxdur. Çünki məkana daxil olan şəxs mütləq qaydada nəzarətdən keçir və COVİD pasportunu göstərir".

*E.Hacıyev deyib ki, heç bir halda polis həmin tədbirə gedib müdaxilə etməyəcək və insanların əyləndiyi zaman yaxınlaşıb, toyun gedişatına mane olmayacaq:* "Bütün normalar mərasimin təşkilinə 5 gün qalmış tənzimlənəcək. Tələb odur ki, yalnız toya qədər 5 gün ərzində tərəflər məlumatlandırılsın. Heç bir halda polisin marağında deyil ki, hansısa vətəndaşın şad günündə ona müdaxilə etsin. Ona görə güclü təbliğat aparırıq ki, vətəndaşlarımız elementar normaları bilsinlər. Əgər orda qayda pozulursa, barələrində inzibati məsuliyyət tədbiri nəzərdə tutula bilər. Ona görə də bu, qarşılıqlı hörmətə əsaslanmalıdır. Vətəndaşdan tələb olunan odur ki, qaydalara riayət etsin".



**Tibb elmləri üzrə fəlsəfə doktoru Rəşid Mahmudov "Şərq"ə açıqlamasında bildirib ki, yeni toy qaydaları düzgün deyil. Tanınmış həkim qeyd edib ki, ümumiyyətlə, 50 nəfərə qədər tədbirlərdə, yəni toy, nişan, ad günü və digər mərasimlərdə tibbi maska tələbinin mütləq olması isə ümumiyyətlə, düzgün olmayan bir qərardır:** "Hesab edirəm ki, toylara icazə veriləcəksə, belə məhdudiyyətlərə heç bir ehtiyac yox idi. Verilən qərarlar həqiqətən də gülünc qərarlardır. Necə olur ki, 50 nəfər şəxs yemək yeyərkən maska taxmalıdır, oynayarkən ehtiyac yoxdur maskaya? Guya belə əsaslandırılır ki, 50 nəfərlik toyda vaksin pasportu tələb olunmur, ona görə, maska taxmaq məcburidir. Onda belə çıxır ki, həmin toyda vaksin olunan varsa, o da maska taxmalıdır. Bu günləri minlərlə insan futbol meydanında futbol oynayırlar. Hətta milyonlarla insan arenada oturub futbola baxır. Bəs, onlar virusa yoluxmurmu? Bir sözlə, verilən qərarlar yanlışdır".

**Aynurə Pənahqızı**

# İsrail ciddi əndişə keçirir



## *ABŞ qoşunlarının Yaxın Şərqdən çıxarılması İranla ərəb ölkələrini yaxınlaşdıracaq*

İsrail Prezidenti Reuven Rivlin ABŞ rəhbəri Cozef Baydenlə görüşü zamanı onu İranla bağlı xəbərdar edib. Rivlin İranın Ərəbistan yarımadasındakı ölkələrə bir sıra təkliflər etdiyini söyləyib. İsrail prezidenti bildirib ki, Amerikanın Yaxın Şərqdən qoşunlarını çıxarması qərarı ərəb ölkələrini İranla sıx əlaqələr qurmağa məcbur edəcək.

Məlumat üçün bildirək ki, rəsmi Vaşinqton Amerika silahlı qüvvələrinin Yaxın Şərq ərazisindən çıxarılmasına başlayıb. "Wall Street Journal" nəşrinin xəbərinə görə, Pentaqon "Patriot" raket komplekslərinin səkkiz batareyasını İraq, Küveyt, İordaniya, həmçinin Səudiyyə Ərəbistanından çıxarıb. Səudiyyə Ərəbistanından raket əleyhinə "THAAD" sistemi də çıxarılıb və reaktiv qırıcıların eskadrilyalarının sayı azaldılıb. Güman edilir ki, daha əvvəl bu sistemlərdə xidmət edən yüzlərlə hərbçi Amerikaya qayıdacaq. Vurğulanıb ki, qoşunların Yaxın Şərqdən çıxarılması regionun daha çox ənənəvi mühafizə səviyyəsinə qayıdışına hesablanıb.

**İsrailin narahatlığını "Şərq"ə təhlil edən politoloq Natiq Miri bildirib ki, ekspert Donald Tramp dönəmində Yaxın Şərqdə tamamilə fərqli siyasət ortalığa qoyulmuşdu. Ancaq yeni hökumət**

> "İsrail uzun zamandır İranın region üçün böyük təhlükə olduğunu vurğulayır və nüvə silahına sahib olacağı təqdirdə vəziyyətin nəzarətdən çıxacağını iddia edir"

**proseslərə başqa prizmadan yanaşır. Ekspert diqqətə çatdırıb ki, ABŞ Yaxın Şərqdə İsrail üçün təhlükəsizlik sistemi yaratmışdı:** "Amerikanın bölgədə mövcudluğunun qayəsi Yaxın Şərqdəki ərəb ölkələrinin İsraillə əməkdaşlığını təmin etmək idi. Nəticədə İsrail regionda İrana qarşı tək deyildi və ətrafına ərəb dünyasını da çəkə bilmişdi. Ancaq Bayden dönəmində fərqli siyasət yürüdülür. Yaxın Şərqdən, eyni zamanda Əfqanıstandan Amerika qoşunlarının çıxarılması ilə bağlı ard-arda açıqlamalar verilir. İsrail isə bunu öz təhlükəsizliyi üçün ciddi təhlükə sayır. İsrail uzun zamandır İranın region üçün böyük təhlükə olduğunu vurğulayır və nüvə silahına sahib olacağı təqdirdə vəziyyətin nəzarətdən çıxacağını iddia edir. Rivlin yaxşı anlayır ki, ABŞ-ın Yaxın Şərqdəki təhlükəsizlik sistemi aradan qalxarsa, ərəb ölkələri İran qarşısında zəif duruma düşəcək. Nəticədə ya İranla mütləq mənada əməkdaşlıq formatını seçmək, ya da özləri üçün başqa təhlükəsizlik çətiri yaratmaq məcburiyyətində qalacaqlar. İsrail rəhbərliyi ərəb ölkələrinin İranla birləşməsini daha ciddi təhlükə hesab edir. Belə bir təhlükə artıq realdır. Səudiyyə Ərəbistanı ilə İran arasında danışıqlar getməkdədir. Konkret anlaşmalar hələ olmasa da, iki ölkənin yaxınlaşması müşahidə olunur. Əgər danışıqlar siyasi nəticə verərsə, Yaxın Şərqin digər ərəb ölkələri də İranla əməkdaşlığa meyl edəcəklər. İsrailin əsas narahatlığına səbəb budur".

**Siyasi şərhçi vurğulayıb ki, ABŞ regionu tamamilə buraxıb getməyəcək:** "Bayden Amerikanı yenidən "hegemon dövlət" statusuna qaytaracağını deyib. Vaşinqton bununla bağlı qərarı qəti icra edərsə, regionda təhlükəsizlik sistemini həyata keçirəcək başqa güc mərkəzləri meydana çıxa bilər. Hələlik bu yöndə strateji qərar yoxdur. Bir məqamı xatırladım ki, NATO qoşunları Əfqanıstandan çıxmaq məqsədini açıqlayarkən paytaxt Kabilin və beynəlxalq hava limanının qorunmasını Türkiyəyə həvalə etmək istədi. Çünki bu cür təhlükəsizlik çətiri yaratmaq öhdəliyini ancaq Türkiyə kimi ölkələr üzərinə götürə bilər. Eynilə Yaxın Şərqdə də ABŞ-ın alternativi olmalıdır. Əks halda yaranmış boşluq İran tərəfindən doldurulacaq".

**İsmayıl Qocayev**

# Rusiyaya qarşı yeni bir cəbhə formalaşıb

## Lavrovun Türkiyə səfəri çox kritik keçəcək



**Rusiyanın Xarici işlər naziri Sergey Lavrov bu gün Türkiyəyə səfər edəcək. Bu barədə Rusiya XİN-in mətbuat xidməti məlumat yayıb.**

Lavrov Antalyada türkiyəli həmkarı Mövlud Çavuşoğlu ilə danışıqlar aparacaq. Görüş zamanı nazirlər ikitərəfli münasibətlərin vəziyyətini və inkişaf perspektivlərini, regional və beynəlxalq gündəlikdəki aktual məsələləri müzakirə edəcəklər. Qeyd olunub ki, XİN rəhbərləri Cənubi Qafqaz, Yaxın Şərq və Şimali Afrika, Əfqanıstan, Ukrayna, Orta Asiya, Şərqi Aralıq dənizi və Qara dəniz bölgəsindəki vəziyyətə dair fikir mübadiləsi aparacaqlar. Bundan əlavə, tərəflər 26 may 2021-ci il tarixində Suriyada keçirilmiş prezident seçkiləri fonunda ölkədəki böhranın həlli, Liviyadakı vəziyyətin inkişaf perspektivləri ilə bağlı müzakirələr aparacaqlar. Hərbi-texniki əməkdaşlıq, koronavirus infeksiyasına qarşı mübarizə məsələləri də diqqətdə olacaq.

**Politoloq Məhəmməd Əsədullazadə "Şərq"ə Sergey Lavrovun Türkiyəyə səfərini dəyərləndirib. Politoloq vurğulayıb ki, bu səfər çox kritik bir səfərdir:** "İlk olaraq qeyd edim ki, Co Baydenin Avropa turnesi və Ərdoğanla görüşündən sonra Rusiyaya qarşı yeni bir cəbhə formalaşıb. Qara dəniz priferiyasında Rusiyaya qarşı Qərbin, xüsusilə ABŞ-ın müəyyən təzyiqləri görülməkdədir. Həmçinin, NATO Qara dənizdə hərbi təlimlər keçirir ki, bütün bu məsələlər Rusiyanı ciddi narahat edir. Digər məsələ isə təbii ki, Cənubi Qafqazda Türkiyənin artan roludur. Xüsusilə Şuşa Bəyannaməsindən sonra Türkiyənin Qarabağda siyasi, hərbi mövqeyinin güclənməsi, o cümlədən Azərbaycanla bütün sferalarda əməkdaşlıq, birgə hərbi təlimlər Rusiyanı ciddi narahat etməkdədir. Habelə, Türkiyənin Azərbaycanda gələcək perspektivdə hərbi bazasının istisna edilməməsi də Rusiyanı təşvişə salır".

**M.Əsədullazadə qeyd edib ki, S-400 raketlərinin növbəti alışı ilə bağlı Rusiyadan Türkiyəyə təkliflər var:** "Düşünürəm ki, Türkiyə bu təkliflərə yox deyəcək. Səfərdə Mərkəzi Asiyada iki dövlətin ortaq maraqları barədə fikir mübadiləsinin aparılacağı istisna deyil. Fikrimcə, bu görüşdə Türkiyə Rusiya arasında Sergey, Putin və Ərdoğanın görüşünün razılaşdırılması, gözlənilən görüşün detalları ətrafında müəyyən mülahizələr irəli sürüləcək. Həmçinin Zəngəzur dəhlizinin açılması üçün Azərbaycan-Ermənistan arasında delimitasiya və demarkasiya prosesləri, o cümlədən 10 noyabr və 11 yanvar razılaşmalarının həyata keçirilməsi də müzakirə ediləcək".

**Aynurə Pənahqızı**


T.R.
MUSTAFAKEMALPAŞA
1.ƏSLİYYƏ HÜQUQ MƏHKƏMƏSİ
(AİLƏ MƏHKƏMƏSİ ADINDAN)

ƏSAS NO: 2009/554
QƏRAR NO: 2011/521

ELAN

1. İdiaçının davasının qəbuluilə; Balıkesir Şəhəri, KepsutRayonu, Alagüneykəndi, Cild No: 9, AiləQeyd No: 6 NömrədəAiləQeydiyyataqeyd olunan, İsmail və Fatma oğlu Kepsut 06/02/1973 təvəllüdlü 12109758430 olan iddiaçı MUSTAFA KARTAL iləƏləddinvə Fatma qızı, 10/03/1981 Azərbaycanda anadan olan CavabdehRUHİYYƏ İSMAYILOVA-nın TMQ-nun 166/1-ci maddəsinəəsasən BOŞANMALARINA,

2. Tərəflərin maddi vəmənəvitəzminatvəalimenttələbi olmadığından qərarverilməsinə LAZIM OLMADIĞINA,

3. Nəğd alınan 15,60 TL xərcinəsas alınması tələb olunan 18,40 TL xərcdənçıxılaraqqalan 2,80 TL Xərciniddiaçıdanalınaraqxəzinəqeydinə,

4. İddiaçıtərəfindənödənənMəhkəməXərclərin davadan fəraqətsəbəbiləiddiaçıtərəfindənödənilməsinə,

dairiddiaçınınüzünəqarşı, cavabdehiniştirakı olmadan, əsaslandırılmışqərarıntəbliğindənetibarən 12/01/2011 tarixlivə 6100 Saylı HMQ-nun 361/1 Maddəsinəəsasən 1 ay müddətərzindəapelyasiyaşikayətiveriləbiləcəyiaçıqolmaqüzrəaçıqoxunubqaydailə anlatıldı. 22/02/2021

Katib 182772
Hakim 214655


# Parlament seçkiləri ölkədə xaos yaradıb



## *"Paşinyan Koçaryanı qıcıqlandırır ki, onun bloku parlamentə düşməsin"*

Bu yaxınlarda Ermənistanda növbədənkənar parlament seçkiləri başa çatdı. Lakin seçkilər yekunlaşsa da, bəzi məsələlər həllini tapmayıb. Bir çox ekspertin fikrincə, Ermənistanda seçkilərdən sonra daxili vəziyyət daha da gərginləşəcək, xaos yaranacaq.

Ermənistanın keçmiş prezidenti Robert Koçaryan barəsində cinayət işi üzrə məhkəmə prosesi Yerevanın Şenqavit rayon məhkəməsində davam edir. Həmçinin Ermənistanın keçmiş baş naziri Armen Gevorkyanla bağlı məhkəmə prosesi də bərpa olunub. Bildirilib ki, əvvəlki məhkəmə prosesləri müxtəlif səbəblərə görə təxirə salınmışdı.

İrəvandakı daxili prosesləri **"Şərq"ə şərh edən Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin direktoru, politoloq Mübariz Əhmədoğlu Ermənistanda seçkilərin başa çatdığını düşünmür.** Onun sözlərinə görə, siyasətçilərimizin böyük əksəriyyəti Ermənistanın konstitusiyasındakı seçki ilə bağlı müddəalara lazımi qiymət verməyiblər: "Əslində bu seçkilər tragikomediya idi və həmin tragikomediyanın sadəcə birinci pərdəsi başa çatıb. Nikol Paşinyan Koçaryanı qıcıqlandırır ki, onun bloku parlamentə düşməsin. Beləliklə, Paşinyan elan etsin ki, konstitusiyaya görə, hələ Ermənistanda parlament yoxdu. Yəni Ermənistan konstitusiyasına görə parlament odur ki, onun 30 faizi müxalifətdir. Koçaryan və Sarkisyan parlamentə düşməyəcəklərsə, deməli, parlamentin 30 faizi, yəni müxalifət hissəsi olmayacaq. Parlamentdə 30 faizin müxalifət olması və müxalifətin parlamentdə iştirakı Ermənistanda konstitusion tələbdir. Paşinyan da bu addımı bilə-bilə atır. Rəqəmləri elə qaydada saxtalaşdırıb ki, özünə istədiyi vəziyyəti yaratsın. Bununla da lazım olanda parlamentin olduğunu desin, yaxud əksinə, lazım gəldikdə parlamentin olmayacağını söyləsin. Çünki üçtərəfli bəyanatda elə məsələlərə qol çəkilib ki, bu gün Paşinyan həmin məsələləri reallaşdıra bilməyəcək. Ona görə parlament seçkiləri ölkədə xaos vəziyyət yaratdı. Paşinyan özü bilə-bilə Koçaryanı qıcıqlandırır. Düşünürəm ki, yaxın zamanda Ermənistan parlamenti hökumətin sona qədər formalaşmasına imkan verməyəcək".

**Yeganə Bayramova**

**Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**




# Müharibə artıq bitib

## Sülh müqaviləsinə hazırlıq işlərinə başlanmalıdır

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Azərbaycan tərəfi Cənubi Qafqaz regionuna dair baxış bucağını bir daha açıqladı. Rəsmi Bakı öz prinsipial mövqeyini regiondakı proseslərdə bilavasitə və dolayısı yolla iştirak edən bütün qüvvələrə bildirdi. Prezident, Ali Baş Komandan İlham Əliyev Silahlı Qüvvələr Günü münasibətilə Azərbaycan Ordusunun rəhbər və şəxsi heyətinin bir qrupu ilə görüşündə və Avropa İttifaqının nümayəndələri ilə Bakıdakı görüşü zamanı maraqlı məqamlara toxundu.

Ümumən vurğulandı ki, Bakının yeni şərtləri bunlardır: - "Dağlıq Qarabağ" sözünün işlədilməməsi və Ermənistanın öz qonşuları ilə normal münasibətlər qurması və ərazi iddialarından əl çəkməsi. Əgər Ermənistan hökuməti erməni cəmiyyətinin düşdüyü ağır vəziyyətdən çıxmaq və günahkarları cəzalandırmaq niyyətindədirsə, mütləq şəkildə gələcək siyasətinə korrektələr etməlidir. Rəsmi İrəvan unutmamalıdır ki, 10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli saziş Qarabağla bağlı xəyallara son qoyub. Bundan sonra Xankəndidə və ətraf rayonlarda yaşayan erməni əhalisini illüziyalardan uzaqlaşdırmaq lazımdır. Ermənistan Bakının xəbərdarlığını qulaqardına vurarsa, bu, ermənilər üçün çox baha başa gələcək. Bundan sonra bölgədəki yeni proseslərdə Ermənistan özünü qeyri-adekvat apararsa, arxasında kimin olmasından asılı olmayaraq, daha bir şilləmiz ilə qarşılaşacaq. Prezident İlham Əliyev Ordumuzun rəhbər və şəxsi heyətinin bir qrupu ilə görüşündə xüsusilə bəyan etdi ki, Azərbaycan bundan sonra da güclənəcək və o cümlədən bizim hərbi gücümüz artacaq: "Müharibədən sonra artıq müvafiq göstərişlər verildi, yeni kontraktlar imzalandı, yeni silahların, texnikanın, müasir texnologiyaların əsasında texnikanın alınması prosesi başlayıb. Silahlı Qüvvələrimizin struktur islahatları təsdiqləndi. Deyə bilərəm ki, Silahlı Qüvvələrimizin, Ordumuzun say tərkibi artırılacaq. Biz İkinci Qarabağ müharibəsinin nəticələrini və gedişatını düzgün təhlil edərək, əlbəttə ki, öz hərbi gücümüzü artıracağıq. Ermənistanın isə əgər onlar yenə də bizə qarşı düşmənçilik siyasətindən əl çəkməsələr, nəinki hərbi gücünü, nəinki dağılmış, məhv edilmiş ordusunu bərpa etmək imkanı olmayacaq, eyni zamanda, iqtisadi fəallığı bərpa etmək imkanları da çox məhduddur. Ona görə biz güclənəcəyik".

Dövlət başçısı iyunun 25-də Rumıniya, Avstriya və Litvanın xarici işlər nazirlərini qəbul edərkən növbəti dəfə "Dağlıq Qarabağ münaqişəsinin" həll olunduğunu və bununla bağlı danışıqların olmayacağını vurğulayıb. Ölkə rəhbəri bildirib ki, noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanat bəzi beynəlxalq siyasətçilərin təqdim etməyə çalışdığı kimi, təkcə atəşkəs razılaşması deyil, bir çox başqa məsələlərlə bağlıdır: "Biz postmünaqişə vəziyyəti barədə düşünməliyik. Səhifəni çevirməyə, irəli getməyə və regional sabitliyə töhfə verməyə hazırıq. Bu il və gələn il ərzində postmünaqişə vəziyyəti ilə bağlı əsas fundamental yanaşmalar işlənib hazırlanacaq. Azərbaycanın mövqeyi çox açıq və aydındır. Mən artıq dəfələrlə bu barədə danışmışam ki, biz postmünaqişə vəziyyətindən Cənubi Qafqazda sülhməramlı inkişafa və əməkdaşlığa keçmək istəyirik. Əfsuslar olsun ki, indiyədək Ermənistan hökumətindən buna bənzər nə isə eşitməmişik. Ermənistan hökuməti bizim sülh sazişinə dair danışıqlara başlamaqla bağlı heç bir bəyanatımıza məhəl qoymur. Lakin ola bilsin, seçkiqabağı vəziyyət bu cür bəyanatlar vermək üçün çox əlverişli olmayıb. Amma indi Ermənistanda seçkilər başa çatandan sonra ümid edirik ki, müsbət cavab olacaq". Prezident bəyan edib ki, əgər Ermənistanla sülh sazişimiz olmasa, bu o deməkdir ki, sülh də yoxdur: "Təkcə iki ölkə arasında deyil, həm də Cənubi Qafqazda sülh yoxdur. Bizə sülh və dayanıqlı inkişaf, proqnozlaşdırılma, sıfır müharibə riski lazımdır, bizə müharibə lazım deyil".

**Bakı Politoloqlar Klubunun sədri, siyasi elmlər namizədi Zaur Məmmədov vurğulayıb ki, Prezident hərbçilər qarşısında çıxışı zamanı Ermənistan üçün ən düzgün qərarın nələr olmasına aydınlıq gətirib. Analitik qeyd edib ki, "Dağlıq Qarabağ münaqişəsi" həll olunub, Ermənistan da bunu belə qəbul etməlidir və bizimlə sərhədlərin müəyyən edilməsi istiqamətində iş aparmalıdır:** "Delimitasiya üzrə işçi qrup yaradılmalıdır. Sülh müqaviləsinə hazırlıq işləri getməlidir. Bu xəbərdarlıq və şərt də, ermənilər üçün çox vacib və məsuliyyətli istiqamətləri əhatə edir. Hazırda Azərbaycan və Ermənistan arasında iqtisadi və nəqliyyat sahəsində əməkdaşlıq üçün tarixi şans olduğu bir zamanda, tərəflər gələcəkdəki mümkün münaqişələrdən sığortalanmaq naminə, hər iki xalq üçün çox vacib sənədə imza atmalıdırlar. Əgər Paşinyan hakimiyyəti yaxın aylar ərzində Azərbaycanla

## "Ermənistan reallıqları dərk edib Bakının şərtlərinə əməl etməlidir"

bütün sərhədboyu demarkasiya və delimitasiya işlərini həll etsə, o, erməni xalqını gələcəkdə mümkün faciələrdən sığortalaya bilər. Hər kəsə məlumdur ki, Ermənistanda yaxın illər ərzində siyasi sistem qeyri-sabitliyi ilə seçiləcək, eyni zamanda, Azərbaycanla sərhəd bölgələrdə Koçaryan və əlaltılarının siyasi, hərbi təxribatları gözlənilməndir. Belə olan halda, sərhədlərin müəyyənləşdirilməsi, dəqiqləşdirilməsi olduqca zəruridir və bu, ilk növbədə Ermənistana lazımdır. Əks təqdirdə, Azərbaycana qarşı istənilən təxribat Ermənistan dövləti üçün ciddi təhlükə yaratmış olacaq".

Z.Məmmədov bildirib ki, yaxşı olardı ki, Ermənistan cəmiyyətindəki nisbətən ayıq dairələr bugünkü və gələcək reallıqları başa düşsünlər, Bakının şərtlərini yerinə yetirsinlər: "Prezident Ermənistan tərəfinə bəlkə də bu dövlətin psevdo müstəqilliyi dövründə ən vacib xəbərdarlıqlarından birini etdi. Müharibənin yekunları və Azərbaycan Ordusunun torpaqları azad etməsindən 8 ay keçir və dünya ictimaiyyəti, heç bir təşkilat, heç bir dövlət Ermənistanın yanında real olaraq dayanmadı. Təsadüfi deyil ki, bu mövzuya bu yaxınlarda Levon Ter-Petrosyan da toxunaraq qeyd etdi ki, dünya Qarabağı Azərbaycanın ərazisi kimi tanıyır və Ermənistan Dağlıq Qarabağa təsir imkanını tamamilə itirib. Elə ötən həftə Avropa İttifaqının nümayəndələrinin Cənubi Qafqaza səfərinin yekunları da, yuxarıda deyilənlərin göstəricisi idi. Bölgəyə səfərlərinin ilk günü Bakıda olan qonaqlar Azərbaycan Prezidentinin bölgədəki proseslərlə bağlı fikrini nəinki nəzərə aldılar, hətta bir qədər də irəli gedərək dövlətimizin liderinin çıxışındakı vacib məqamları özləri üçün "yol xəritəsinə" çevirdilər. Aİ nümayəndələri, İrəvanda Azərbaycan və Ermənistan arasında əməkdaşlığın və etibarlı münasibətlərin yaradılmasının vacibliyindən danışıblar. "Qarabağın statusu", "Bakı və İrəvan arasında Dağlıq Qarabağın müzakirəsi" ifadələrindən istifadə etməyərək, ermənilərin hiddətinə səbəb oldular. Eyni zamanda, Ermənistanın paytaxtında avropalı siyasətçilər, Azərbaycana xəritələrinin qaytarılmasının vacibliyi haqqında danışıblar. Bütün bunlar sözsüz ki, Azərbaycanın güclü siyasi-iqtisadi gücü, hərbi-siyasi sahədəki tərəfdaşları ilə apardığı uğurlu siyasətinin göstəricisidir".

**Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov da vurğulayıb ki, Ali Baş Komandan İlham Əliyevin "Gülüstan" sarayında hərbçilərlə görüşdə etdiyi geniş, əhatəli çıxış Ermənistanın köhnə-yeni rəhbərliyi üçün böyük "yol xəritəsi"dir.** Partiya rəhbərinin sözlərinə görə, əgər Nikol Paşinyan həqiqətən də bundan sonra Ermənistan-Azərbaycan münasibətlərinin düzgün tənzimlənməsini və normallaşmasını istəyirsə, o, Robert Koçaryan kimi revanşistlərin, müharibə "bayquş"larının təhrikçi fikirləri ilə deyil, ölkə rəhbəri İlham Əliyevin çıxışında yer alan tezislər, mesajlar əsasında hərəkət etməlidir: "Prezident kifayət qədər açıq danışdı və bir sıra önəmli mesajlar verdi. Bu mesajlar ilk növbədə Ermənistana və onun xarici havadarlarına, ağalarına ünvanlanmış mesajlar kimi dəyərləndirilməlidir. Bu mesajlarda ermənilərin və Ermənistan rəhbərliyinin "Dağlıq Qarabağ" terminini birdəfəlik unutmalı olmasından tutmuş sülh müqaviləsinin imzalanmasına, delimitasiya işinin aparılmasına hazırlaşmağa qədər bütün spektr əhatə olunub. Əslində Prezident İlham Əliyevin çıxışındakı mesajların hamısını vahid kontekstdə ümumiləşdirsək, dövlət başçımız hazırda bütün ermənilərin son ümid yeri kimi baxdığı Nikol Paşinyana başa salmaq istəyirdi ki, Azərbaycanın yürütdüyü prinsipial və ardıcıl siyasət nəticəsində hazırda Ermənistan regionda ən lazımsız və əhəmiyyətsiz ölkəyə çevrilib. Hətta son 200 ildə daim ermənilərə himayəçilik etmiş Rusiya da artıq Ermənistanla məsafə saxlamağa başlayır. Fransa, Niderland kimi ölkələrin Ermənistanı müdafiə etməsinin səmərəsizliyindən isə heç danışmağımıza dəyməz. Ermənistan adlı ölkə artıq heç kim üçün maraqlı, cazibəli deyil. Ermənistan qlobal oyunçular, aktorlar üçün artıq əvvəlki geosiyasi əhəmiyyətini itirib. İndi heç kim Azərbaycana və Türkiyəyə qarşı planlarını məhz Ermənistan üzərindən gerçəkləşdirməyə can atmır."

Ə.Hüseynov vurğulayıb ki, hazırda Azərbaycan ilə Ermənistanın münasibətləri düşmən ölkələr fazasında olmağına baxmayaraq, bu gün Ermənistanın taleyi nə Moskvadan, nə Parisdən və də Vaşinqtondan asılıdır: "İrəvanın gələcəyi məhz rəsmi Bakının tutacağı mövqeyindən, yürüdəcəyi siyasi kursdan asılıdır. Ümumiyyətlə, bu gün Cənubi Qafqazdakı geosiyasi, iqtisadi proseslərdə, o cümlədən nəqliyyat-kommunikasiya məsələlərində həlledici mövqe sahibi, diktə edən tərəf Azərbaycandır. Ermənistan bu bölgədə proseslərə hər hansı formada təsir gücünü büsbütün itirib. Bunu Ermənistanın rasional düşünən ekspertləri özləri də etiraf edirlər. Ermənilər başa düşməlidir ki, Ermənistanın çıxış yolu revanşizmdə deyil. Müharibə canisi Robert Koçaryanın son seçkilərdə məğlubiyyətə uğraması bir daha göstərdi ki, bu gün erməni cəmiyyətinin mütləq çoxluğu artıq müharibəyə, terrora, qonşulara qarşı qəsbkarlığa, təxribatlara ümid bəsləmir. Terror və müharibə dövrü bitdi, millətçi-faşist hərəkatlar dövrü artıq arxada qalıb. İndi ermənilər revanşizmə köklənməklə, Azərbaycan ərazilərini atəşə tutmaqla onsuz da heç nəyə nail olmayacaqlar. Əksinə, bu, Ermənistanı bir az da ağır duruma sürükləyəcək və bir dövlət kimi tamamilə məhvinə səbəb olacaq."

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Həkimlər andlarına sədaqətli olmalıdır

## Sərdar Cəlaloğlu: "Hansısa qanunun qəbulu, cəzanın sərtləşdirilməsi ciddi nəticə verməz"



Milli Məclisdə pasiyentlərin və həkimlərin hüquqlarının qorunması ilə bağlı yeni qanun layihəsi hazırlanır. Bildirilib ki, yeni qanun layihəsi müvafiq qurumlarla razılaşdırıldıqdan sonra müzakirə üçün deputatlara təqdim olunacaq. Yeni qanunla bağlı "Şərq"ə danışan Azərbaycan Demokrat Partiyasının (ADP) sədri Sərdar Cəlaloğlu bildirib ki, ölkəmizdə hər şey qanunla tənzimlənmir:

"Min illərdir ki, həkimlər üçün Hippokrat andı var. Bunun da mahiyyəti ondan ibarətdir ki, həkim pasiyentə təmənnasız yardım göstərməli, düşməni olsa belə köməyini əsirgəməməlidir. Tibb tarixində bir çox alim var ki, onlar ağır xəstəlikləri öyrənmək üçün özlərini həmin xəstəliyə yoluxdurublar və sonra ölüblər. Yəni həkim etikası deyilən bir anlayış var. Bu etikaya kimsə əməl etmirsə, hansısa qanunun qəbulu, cəzanın sərtləşdirilməsi ciddi nəticə verməz. Hər şeyi məcburiyyət üzərində qurmamalıyıq. Həkimlər andlarına sədaqətli olmalı və mümkün qədər həmin andın tələblərinə uyğun çalışmalıdırlar.

Pasiyentlərin də konstitutsiya ilə müdafiə edilən sağlamlıq hüquqları var. Vətəndaşların sağlamlıq hüququnu təmin etmək istiqamətində bu qanun verilməlidir. Çünki qanunlar konstitutsion normaların geniş şərhindən ibarətdir. Yəni Konstitusiyada vətəndaşların sağlamlıq hüququ varsa, o zaman onların sağlamlıq hüququnu tənzimləyən qanunlar da olmalıdır. Hesab edirəm ki, bu cür əhəmiyyətə malik qanunlar qəbul edilərkən ictimaiyyətin müzakirəsinə buraxılmalıdır. Lakin təəssüf ki, Azərbaycanda qanunvericilik təcrübəsində böyük qüsur var. Bir neçə adam ağızlarına gələni yazıb onu qanun formasında cəmiyyətə "sırıyır". Bu qanunlar da sonra işləmir. O qanunlar işləyə bilər ki, onlar real ictimai əsasları özündə əks etdirsin. Məsələn, ölkəmizdə korrupsiya və rüşvət ona görə inkişaf edir ki, insanlar öz münasibətlərini qanunla yox, daha çox rüşvət verməklə tənzimləyirlər". S.Cəlaloğlu qeyd edib ki, son zamanlar xəstələr tərəfindən həkimlərə qarşı ciddi zorakılıq halları müşahidə olunur: "Açığı, bununla bağlı qanunvericilikdə çoxlu boşluq var. Ümid edirəm ki, yeni qanun həmin boşluqları doldurmaq baxımından əhəmiyyətli olacaq. Həm həkimləri xəstələrin haqsız şərindən, həm də xəstələri həkimlərin peşələrinə yaraşmayan qeyri-etik hərəkətlərindən qoruyacaq".

**Yeganə Bayramova**

## Azərbaycan elminə ağır itki üz verib



**Azərbaycan Dövlət Pedaqoji Universitetinin kafedra müdiri, biologiya üzrə fəlsəfə doktoru, dosent Mehdizadə Nizam Mirxas oğlu dünyasını dəyişib. Alimlə iyunun 24-də vida mərasimi keçirilib və o, Biləsuvarın Yuxarı Cürəli kəndində torpağa tapşırılıb.**

Xatırladaq Nizam Mehdizadə 1949-cu ildə yanvarın 14-də Lerik rayonunda anadan olmuşdur. ADPU-nın Biologiya fakültəsini bitirmişdir. Elə pedaqoji fəaliyyətinin əsası ADPU ilə bağlı olmuşdur. Belə ki, ADPU-da laboratoriya müdiri, baş müəllim, Kimya-biologiya faülktəsinin dekan müavini, dekanı, 2017-ci ildən "İnsan anatomiyası və tibbi biliklər" kafedrasının müdiri vəzifəsində çalışmışdır. Çoxsaylı məqalə, monoqrafiya və dərsliklərin müəllifi idi.

Biologiya fənni üzrə Respublika Olimpiadasında məsul katib, sədr müavini (1996-2015) və Beynəlxalq Biologiya Olimpiadasında Azərbaycan Respublikasının komanda rəhbəri kimi ölkəni təmsil etmiş və 6-cı Beynəlxalq Biologiya Olimpiadasının "Sertifikatı"nı almışdır.

AMEA-nın Fiziologiya İnstitutunun nəzdində AAK-nın "İnsan və heyvan fiziologiyası" və "Biokimya, Molekulyar biologiya" ixtisasları üzrə müdafiə şurasının üzvü olmuşdur (2012-2021).

Təhsil sahəsində xidmətlərinə görə 2012-ci ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Tərəqqi" medalı ilə təltif olunmuşdur.

Nizammüəllimə Allahdan rəhmət diləyir, ailə üzvlərinə və yaxınlarına dərin hüznlə başsağlığı veririk...

**Seyidhüseyn Hüseynov,**
**ATİAHİ Sabirabad rayon komitəsinin sədri**

# Qeyri-neft sahəsində gəlirlərimiz artacaq

## Şimal-Cənub nəqliyyat dəhlizindən daha aktiv şəkildə istifadə olunacaq



"Güman edilir ki, Şimal-Cənub Nəqliyyat Dəhlizinin reallaşması beynəlxalq yükdaşımanın həcminin və qeyri-neft gəlirlərimizin artmasına imkan verəcək".

Bunu Milli Məclisin deputatı Vüqar Bayramov "Şərq"ə açıqlamasında bildirib. Onun sözlərinə görə, Finlandiyanın Helsinki şəhərindən Hindistanın Nava Şeva limanına göndərilən ilk konteyner blok qatarı Azərbaycan ərazisi vasitəsi ilə şərqə istiqamət götürüb: "Bu artıq Şimal-Cənub dəhlizinin Azərbaycan hissəsinin istifadə olunması anlamına gəlir. Sözügedən dəhliz vasitəsilə ilk yüklər ölkəmizin ərazisindən keçməklə Hindistana daşınır. Bu isə o deməkdir ki, daha çox test qatar hərəkəti kimi xarakterizə olunan bu yükdaşımadan sonra Şimal-Cənub nəqliyyat dəhlizi daha aktiv şəkildə mütəmadi olaraq istifadə olunacaq". Deputat qeyd edib ki, Şimal-Cənub nəqliyyat dəhlizi vasitəsilə Azərbaycan ərazisindən yüklərin daşınması Vətən müharibəsindəki zəfərimizdən sonra regionda formalaşan yeni düzən kontekstindən daha strateji əhəmiyyət daşıyır: "Belə ki, savaşdan sonra regionda kommunikasiyaların bərpası intensiv müzakirə olunur. Digər tərəfdən, Zəngəzur dəhlizinin istifadəyə verilməsi ilə bağlı danışıqlar sürətlənməklə bu məsələnin aktuallığı daha da artır. Belə ki, Şərq-Qərb nəqliyyat dəhlizinə inteqrasiya olunacaq Zəngəzur dəhlizi Şimal-Cənub dəhlizində yükdaşımaların da həcminə təsir göstərəcək. Bu, Azərbaycan üzərindən daşınan beynəlxalq yüklərin həcminin artırmaqla yanaşı, ölkəmizin strateji mövqeyini daha da möhkəmləndirəcək". Deputat vurğulayıb ki, Süveyş kanalında son baş verən qəzadan sonra isə Şimal-Cənub dəhlizinin əhəmiyyəti daha da yüksəlmişdi: "Belə ki, nəinki region ölkələri, həmçinin inkişaf etmiş dövlətlər layihəyə regionda əsas alternativ nəqliyyat dəhlizi kimi yanaşırlar. Bu isə dəhlizin iqtisadi səmərəliliyini artırmaqla yanaşı, strateji əhəmiyyətini də yüksəldib. Rusiyadan Hindistana qədər uzanan nəqliyyat dəhlizi region üzrə beynəlxalq yükdaşımaların həcminə xüsusi təsir göstərəcək. Azərbaycan həm investisiya, həm infrastruktur baxımından layihənin reallaşmasına dəstək verib. Layihənin həyata keçməsi Azərbaycan üçün beynəlxalq yükdaşımaların həcminin artırılması baxımından da vacibdir. Beynəlxalq daşımalar ölkəmizin qeyri-neft sektorunun əsas istiqamətlərindən biridir".

**Aynurə Pənahqızı**

Dünya bazarında neftin qiyməti yenə aşağı düşüb. Buna koronavirusun "Delta" ştammının yayılmasından sonra sərmayədarlar arasında yaranmış narahatlıqlar səbəb olub. Şimal dənizində hasil olunan "Brent" neftinin sentyabr fyuçerslərinin qiyməti Bakı vaxtı ilə saat 08:54-də 0,45 azalaraq 73,81 ABŞ dolları təşkil edib. "Brent"in avqust fyuçersləri isə 0,52 ucuzlaşıb və 74,29 ABŞ dollara təklif olunub.



# İndidən dəqiq proqnoz söyləmək çətindir

## Ancaq pandemiya dalğası yenidən artarsa, dünya iqtisadiyyatının çöküşü baş verəcək

"WTI" neftinin avqust fyuçersləri bu səhər 0,41 ucuzlaşaraq bir bareli 72,61 ABŞ dollara satılıb. Koronavirusla bağlı yeni narahatlıqlar neft qiymətlərinə mənfi təsir göstərir. Treyderlər xüsusilə COVID-19-un yeni "Delta" ştammının yayılmasından ehtiyatlanırlar. Bu ştammın bəzi ölkələrdə yayılması xammal tələbatı üçün risklər yaradır, çünki yoluxma hallarının artmasına görə insanların hərəkətinə məhdudiyyətlər yenidən tətbiq olunur.

**Mövzu ilə bağlı iqtisadçı-ekspert Pərviz Heydərov "Şərq"ə açıqlama verib. Ekspert qeyd edib ki, neftin qiymətinin yüksəkdə olmasını təmin edən əsas vasitələrdən biri dünya iqtisadiyyatının normal çalışmasıdır:** "Ümumiyyətlə, neftlə əlaqədar dünya bazarlarında sabah vəziyyətin necə olacağı barədə qabaqcadan fikir söyləmək çox çətindir. Dünya iqtisadiyyatının normal çalışması üçün iqtisadi aktivliyin və işgüzar fəallığın normal səviyyədə olması əsas amillərdən biridir. Bura tələbin olması, istehsalın və istehlakın əvvəlki qaydada olması və s. kimi amillər daxildir. Əgər növbəti dəfə bütün qeyd etdiyim amillər hər hansısa bir virus səbəbindən aradan qalxarsa, dünya iqtisadiyyatında yenidən bir çöküşün, enişin şahidi olacağıq. Nəticədə yenə dünya iqtisadiyyatının geriləməsi müşahidə ediləcək".

*P.Heydərov əlavə edib ki, Azərbaycan da dünya iqtisadiyyatının tərkib hissəsidir:* "Azərbaycanda dövlət büdcəsi, əhalinin gəlirləri, ümumiyyətlə hər bir məqam bilavasitə neftin qiymətindən asılıdır. Əgər dediyim kimi, dünya iqtisadiyyatında qeyd olunan tendensiyalar yenidən müşahidə edilməyə başlayarsa, iqtisadi vəziyyətin yenidən əvvəlki kimi pisləşəcəyinin şahidi ola bilərik. Amma yenə təkrar edirəm ki, bu barədə indidən dəqiq proqnoz irəli sürmək mümkün deyil".

**Aynurə Pənahqızı**

# Korrupsiya halları var



*"AZAL astronomik məbləğlər qeyd edir"*

Bu günlərdə Parlamentin iclasında millət vəkili Qənirə Paşayeva AZAL-dakı qiymətlərlə bağlı narazılığını bildirib. O, qiymətlərin əlçatan edilməsi üçün AZAL-a müraciət edib:

"Türkiyədən Azərbaycana gəlmək istəyən çoxlu sayda insanlar var. Hər gün sosial media hesablarımız vasitəsilə çoxlu sayda müraciətlər alırıq. Yazırlar ki, biz Azərbaycana gəlmək istəyirik, amma Türkiyədən dünyanın çox ölkəsinə biletlərin qiyməti Azərbaycandan daha ucuzdur. Azərbaycana biletlərin qiyməti niyə bu qədər bahadı? Bunu Azərbaycan vətəndaşları da söyləyir.

Deputat AZAL-a çağırış edib: "Ona görə də mən AZAL-a burdan çağırış edirəm. Bu qiymətlərə baxılsın və bunların əlçatan edilməsi üçün addımlar atılsın".

**Məsələ ilə bağlı "Şərq"ə danışan iqtisadçı-alim Nazim Bəydəmirli bildirib ki, AZAL dövlət büdcəsi hesabına astronomik məbləğlər qeyd edir:** "Həm də AZAL-ın rəhbərliyi müxtəlif jurnalist araşdırmalarında korrupsioner məmur kimi gündəmdədir.

Təəssüf ki, fikirləri yayındırmaq üçün Nazirlər Kabinetini büdcənin qəbulu zamanı ciddi sorğulamalı olan deputatlar sosial şəbəkələrdə müzakirə olunan məsələlərin nəticələrinə fikir bildirirlər.

Onlar səbəbləri göstərməyərək məsuliyyətdən yayınırlar və özləri də bu məsələlərdən kifayət qədər yararlanırlar.

Həmin korrupsioner məmurlardan şəxsi problemlərini həll etmək yolunu tuturlar.

Bu da ictimaiyyətə çoxdan məlumdur. Ümumiyyətlə, Azərbaycanda deputat korpusu saxtalaşdırılmış və asanlaşdırılmış formada keçirildiyinə görə, onların fikirləri ictimai əhəmiyyət daşımır. Hesab edirəm ki, neçə illərdir onların nəsə söyləməyindən asılı olmayaraq, vətəndaşlar tərəfindən ciddi qəbul edilmir.

Ən əsası hökumətin tabeliyindən və icra hakimiyyətindən asılı olan deputatlar, müxtəlif münasibətlər xatirinə mandatlar hədiyyə edilmiş şəxslərin nəsə deməsinin ictimai fikrə təsiri yoxdur.

Yəni onlar bəzən belə fikirlər səsləndirərək şəxsi piar kampaniyalarını aparırlar və guya özlərini aktiv, xalqın dərdi haqqında danışan deputat kimi qələmə verirlər.

Sosial şəbəkələrdə vacib məsələlərlə bağlı insan hüquq və azadlıqları, vətəndaşların kommunal xidmətlərinə dair insanları qayğılandıran məsələlərə reaksiya verməyən şəxslərin hansısa məsələni yenidən səsləndirməsinin əhəmiyyəti yoxdur".

**Yeganə Bayramova**



## İyulun 1-dən...

Birdəfəlik plastik qablardan istifadə edənlər cərimələnəcək

**İyulun 1-dən birdəfəlik istifadə üçün nəzərdə tutulan bir qrup plastik qablardan istifadə edənlər cərimələnəcək.**

Bunu "Təmiz Şəhər" ASC-nin Hüquq şöbəsinin müdir müavini Mirzə Laçınov deyib. Onun sözlərinə görə, nəzərdə tutulan cərimə insanların plastik qablardan istifadəsini məhdudlaşdırmaq üçündür. "Fiziki şəxslər üçün ilk dəfə 1000-1500, növbəti dəfələrdə isə 1500-2000 manat, hüquqi şəxslər barədə isə ilk hal üçün 3000-4000, növbəti dəfə 4000-5000 manat cərimə nəzərdə tutulub".

*Qeyd edək ki, mövcud qanunvericiliyə görə iyulun 1-dən birdəfəlik istifadə üçün nəzərdə tutulan plastik çəngəl, qaşıq, bıçaq, qarışdırıcı çubuq, boşqab və stəkanların sahibkarlar tərəfindən istehsalı və idxalı, həmçinin ticarət, ictimai iaşə və digər xidmət obyektlərində istehlakçıya satılması və ya xidmət zamanı istifadəsi qadağandır.*



## Elan saytlarında kirayə ev axtaranları aldadırlar

**Son dövrlərdə elan saytları vasitəsilə kirayə ev axtaranlar fırıldaqçıların qurbanına çevrilir.**

Bu barədə Trend-ə açıqlama verən əmlak eksperti Ramil Osmanlı vətəndaşları maksimum dərəcədə diqqətli olmağa çağırıb. Onun sözlərinə görə, bunun əsas səbəblərindən biri əsasən kirayə ev götürmək istəyən vətəndaşların bir çox hallarda ərazi üzrə ev axtararkən paytaxtdan kənarda olmalarıdır.

"Bu zaman qarşı tərəflə əlaqə yaradarkən, deyilir ki, beh qoymaq lazımdır. Behin də göndərilməsi üçün vəsaitin müəyyən kart hesabına köçürülməsi təklif edilir. Arada da heç bir rəsmi müqavilə olmadığı üçün sonradan pulu alan şəxs yoxa çıxır və onunla əlaqə saxlamaq mümkün olmur. Hesab edirəm ki, vətəndaşlar bu məsələdə diqqətli olmalı, ən azından qarşı tərəfin fəaliyyəti ilə yaxından tanış olmadan ona ödəniş etməməlidirlər. Bu həmçinin kifayət qədər ciddi problemlərin də yaranmasına gətirib çıxarır. Bəzi hallarda hətta tərəflər arasında qarşıdurmaya qədər gedib çıxır".

# Yeni layihə alqışlandı

Təhsil nazirinin müvafiq əmri ilə həyata keçirilən "Məktəblərdə keyfiyyətin inspeksiyası" layihəsi çərçivəsində Təhsildə Keyfiyyət Təminatı Agentliyi (TKTA) tərəfindən növbəti dəfə məktəb inspektoru vakansiyası elan olunub.




*Məktəb inspektorları yoxlamağa gedəcək, dərs dinləyəcək, ümumi analiz aparacaq*

Layihənin məqsədi məktəblərdə tədrisin keyfiyyətini yüksəltmək, o cümlədən məktəb-şagird-valideyn əlaqələrini daha da gücləndirərək, sağlam və keyfiyyətli təhsil mühiti formalaşdırmaqdır. Vakansiya üzrə müraciətlərin qəbulu iyulun 10-dək davam edəcək. Müraciət etmək istəyən şəxslər agentliyin rəsmi saytına daxil olub vakansiya tələbləri ilə tanış olaraq, məlumatlarını göndərə bilərlər. Layihə çərçivəsində martın 10-dan iyunun 7-dək Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Yevlax, Lənkəran şəhərlərində, həmçinin Abşeron, Masallı, Cəlilabad və Bərdə rayonlarında yerləşən 24 məktəbdə pilot inspeksiyalar keçirilib. Mövcud vakansiya üzrə inspektorların seçimi və namizədlərin təlimləndirilmə prosesi yekunlaşdıqdan sonra növbəti tədris ilindən etibarən real inspeksiyalara başlanılacaq.

**Təhsil eksperti Elşən Ramizoğlu "Şərq"ə "Məktəblərdə keyfiyyətin inspeksiyası" layihəsi barədə danışıb.** Ekspert açıqlamasında vurğulayıb ki, bu, yeni bir layihədir: "İlk olaraq qeyd edim ki, bu layihə ideya olaraq çox gözəldir. Ancaq gələcəkdə onun icrasının və nəticəsinin necə olacağı çox maraqlıdır. Məktəb inspektoruna ali təhsilli, pedaqoji sahədə 8 il iş və idarəetmə üzrə təcrübəsi olanlara üstünlük verilir. Birinci mərhələdə CV (şəxsi məlumatlar) yollanılır, sonra həmin şəxsləri imtahana dəvət edilirlər. Qeyd edim ki, müsahibədən keçən namizədlər xidməti müqavilə və ya tam ştatla işə başlayacaqlar. Məndə olan məlumata görə, bugünədək məktəb inspektoru seçilən şəxslər öz rayonlarında fəaliyyət göstərmirlər və başqa rayonlara gedirlər. Məktəb inspektorları əsasən, məktəbləri yoxlamağa gedir, dərs dinləyir və sonda ümumi analiz edirlər. Əslində bu, çox əla layihədir".

**E.Ramizoğlu layihənin icra mexanizminin necə olacağı barədə danışmağın hələ tez olduğunu vurğulayıb:** "Hələlik, CV-lərin seçim mərhələsinin necə olacağı bəlli deyil. Hesab edirəm ki, 8 il pedaqoji stajın qoyulması çox yanlışdır. Çünki məktəb direktoru üçün staj 5 ildir. Məktəb direktoru da dərs dinləyir, inspektor da. Yeni mexanizm olaraq çox da fərqli bir işlər görmür. Sadəcə, inspektor nazirliyin əməkdaşı kimi yüksək nüfuza sahib olur. Digər bir tərəfdən yeni tədris ilində qərəzsizlik, ayrıseçkilik və digər qeyri-leqal hallara yol verilməməlidir. Amma biz deməklə olmur, olanda qərəzsizlik də olur, başqa şeylər də. Bu hallara qarşı daha diqqətli olmalıyıq. Kimi seçirlər seçsinlər, fərq etməz. Ancaq heç olmasa, bir az obyektiv olsunlar. Bu gözəlliyi çirkinləşdirməyək və iş görmək istəyərkən əlavə problem yaratmayaq".

**Aynurə Pənahqızı**






## Füzulidə 14 yaşlı yeniyetmə dron hazırlamağı planlayır

**Füzuli rayon sakini 14 yaşlı Emil Əlizadə öz bacarığını ortya qoyaraq müxtəlif lazımsız tullantılardan cihaz və qurğular hazırlayır.**

Telefon üçün enerji qurğusu, sərinkeş, hava təmizləyicisi, tozsoran və.s qurğular Emil Əlizadənin əl işləridir.

Trend-in Qarabağ bürosunun çəkiliş qrupu Emil Əlizadə ilə görüşüb, onun əl işləri ilə tanış olub. E.Əlizadə bildirib ki, internetdə gördüyü bəzi ixtiralar onun diqqətini cəlb edib və bu istiqamətdə çalışmalara başlayıb. Hazırda istedadlı məktəblinin iş otağında xeyli sayda qurğu var. E.Əlizadənin təhsil aldığı orta məktəbin fizika müəllimi Aynurə Ağzadə bildirib ki, yeniyetmə uzun müddətdir bu kimi qurğular hazırlayır və isdedadı ilə həmyaşıdlarından seçilir.

Emilin növbəti hədəfi dron hazırlamaqdır. O, bu istiqamətdə hazırlıqlara başlayıb və layihəsini tezliklə bitirməyi planlaşdırır.

# Azərbaycanda 81 il əvvəl çəkilmiş filmin fraqmenti aşkarlanıb



Şəxsi mənbələrdən daxil olan kinoxronika materiallarının araşdırılması zamanı rejissor Abbas Mirzə Şərifzadənin "Hacı Qara" filminə aid bir fraqment aşkar edilib.

Sputnik Azərbaycan xəbər verir ki, foto və videokadrların müqayisəsi zamanı, həmçinin kino lentinin texniki xüsusiyyətləri fondun mütəxəssislərində tam əminlik yaradıb ki, aşkarlanan və kino lentindən köçürülərək rəqəmsallaşdırılan 38 saniyəlik epizod bu günədək bir neçə fotodan başqa heç bir görüntüsü mövcud olmayan "Hacı Qara" filminə aiddir.

Fond filmdən həmin parçanı və kitabın həmin səhifəsini oxuculara təqdim edib.

*Qeyd edək ki, filmin quruluşçu rejissoru Abbas Mirzə Şərifzadə, ssenari müəllifi Cəfər Cabbarlı, operatoru İvan Tartakovskidir. Rollarda Mirzəağa Əliyev, Mustafa Mərdanov, Ağasadıq Gəraybəyli, Sidqi Ruhulla, Mərziyə Davudova, Hacıağa Abbasov, Əzizə Məmmədova və başqa aktyorlar çəkiliblər. Xatırladaq ki, 1928-ci ildə çəkilmiş filmin kinolenti bu günə gəlib çatmayıb. Buna görə də fondun əməkdaşları kino tədqiqatçısı Ədhəm Qulubəyovun 1960-cı ildə rus dilində çap olunmuş "Azərbaycanda kino sənəti" kitabını əsas götürərək araşdırmalar aparıblar. Belə ki, kitabın 16-cı səhifəsində filmin baş rolunun ifaçısı Mirzəağa Əliyevin Hacı Qara obrazında filmdən fotosu əks olunub.*

## Adət-ənənələrə əməl olunmur

"Həftəyə bir kişi dəyişənlər xına mərasimini idarə edirlər"



**"Görmüşük ki, xına gecəsini ağıllı, ailəli, oğul-qız sahibi olanlar aparır. Bakıda əksər hallarda heç evində olmayanlar, ailədən xəbərsiz, həftəyə bir kişi dəyişənlər xına mərasimini idarə edirlər".**

*"Şərq" xəbər verir ki, bu sözləri instaqram profilində aktyor Sərxan Kərəmoğlu yazıb. O, fikirlərinə bunları da əlavə edib:*

"Qızına xına gecəsi edirsən. Adət-ənənəyə əməl etməlisən. Dul və ya sonsuz qadının yengə getdiyini görmüsünüz? Elimizin adət-ənənəsi var. Xınayaxdı tarixən müqəddəs bir məclis olub və onu korlamamalıyıq. Bəli, razıyam, bu tədbirdə kişilər olmur. Lakin biz çıxış edirik. Bəyi çağırırıq və onunla bərabər məclisə daxil oluruq. Oğlanın dostları da gəlir ki, gənclərimiz biri-birlərinin boyunu görsünlər. Adətlərimizi hansısa zəif nöqtələrə qurban verməyək".

**Samirə**

## Xalq artisti xərçəngə qalib gəlib

Ağadadaş Ağayevin səhhəti yaxşılaşıb



**Xərçəng xəstəliyindən əziyyət çəkən və Türkiyədə əməliyyat olunan Xalq artisti Ağadadaş Ağayevin səhhəti qaydasına düşüb.**

Trend-in məlumatına görə, bu barədə aparıcı Hacı Nuran Hüseynov məlumat yayıb. Onun sözlərinə görə, Türkiyədə üç dəfə əməliyyat olunan ifaçı xəstəliyə qalib gəlib və bu gün Azərbaycana qayıdır.

*Xatırladaq ki, Xalq artisti Ağadadaş Ağayev üç ay idi ki, müalicə olunmaq üçün Türkiyəyə getmişdi.*

## Brilliant Dadaşova "Maç-maç" mahnısının puluna ev alıb



**Xalq artisti Brilliant Dadaşova "Dəlidən doğru xəbər" verilişinin qonağı olub.**

**"Şərq" xəbər verir ki, sənətçi məşhur "Maç-maç" mahnısından bəhs edib:**

"Mənə dedilər ki, bir türk şirkəti 11 aydır o mahnıdan istifadə edir. Bir il tamam olsa, nəsə sübut edə bilməzdin. Bu üzdən getdim, danışdım. Nəticədə beş illik müqavilə imzaladıq. Həmin müddətdə müğənni Günel Zeynalova (Azəri qızı) "Maç-maç" mahnısını oxumaq istədi. İbrahim Tatlısəs söylədi ki, artıq aranjiman etmişik. Mən də deyə bilmədim ki, belə bir müqavilə var, oxumağa icazə yoxdur. O mahnının puluna ev aldım".

**Samirə**

## Nazilə: "Mən dəliyəm, səfiləm, tərki dünyayam"



**Şairə Nazilə Səfərli "Hüseynova bacıları" proqramındakı açıqlaması ilə diqqət çəkib.**

*"Şərq" xəbər verir ki, o, sözügedən proqramda bunları söyləyib:* "Söz ilə şou göstərməyi bacarmaq lazımdır. Şou-biznesə girmisənsə, özəl performans göstərə bilərsən. Mənim xəyalımdakı Nazilə dəlidir, səfildir, dərvişdir, tərki dünyadır. Onu sizə göstərə bilmirəm. Çünki həzm edə bilməyəcəksiniz. İçimdəki sərhədi aşmağı bacarmıram ki, deyim, Nazilə bu deyil".

**Samirə**

# "Hər kəs güzgüdə özünə, keçmişinə baxsın"

*Vəfa Rəqsanəyə "daş atdı"*



Müğənni Vəfa Şərifova "Lent.az"a açıqlamasında həmkarı Şəbnəm Tovuzlu ilə qalmaqalından bəhs edib. "Şərq" xəbər verir ki, ifaçı öncə qarşı tərəfin onun haqda danışdığını söyləyib:

"Sonra mən cavab verdim. Həmişə fikirləşmişəm ki, günahın yoxdursa, danışmalısan. Belə deyilmiş. Bizim cameədə kimin ətrafında tanışı çoxdursa, o adam düz olur. Haqlı olduğun halda belə səhv çıxa bilirsən".

**İfaçı həmçinin digər müğənni - Rəqsanə İsmayılovanın bu mövzu ilə bağlı fikir bildirməsindən və ona məsləhət verməsindən də danışıb:**

"Tövsiyə veriləsi insanlar çoxdur. Öz səhvlərini görməyən, yanlışlarını davam etdirən şəxslər var. İnsan yaş üstə yaş gəldikcə təcrübə qazanır.

Heç vaxt "heç vaxt" demək olmaz. Bəlkə də nə vaxtsa mən də səhv edərəm, başım daşa dəyər. Bəziləri isə o səhvləri təkrarlayırlar.

Mən məsləhətə qulaq asan insan deyiləm. Hamını eşidərəm. Məsələn, bir mahnı alıram, necə olduğunu soruşuram. Öz tövsiyələrini çatdırırlar, lakin istədiyimi edirəm. Hər kəs güzgüdə özünə, keçmişinə baxsın. Şou-biznesdə tanınmaq üçün siyasət işlətmirəm. Kənarda necəyəmsə, burda da eləyəm. Aram olmayan insanla ya heç danışmaram, ya da fikir bildirərəm. Çox müğənni olduğu kimi deyil deyə sevilmir".

**Samirə**

# "12 yaşımdan çöllərdəyəm"

*Nadir Bayramlı ata qayğısı, ana nəvazişi görməyib*



Müğənni Nadir Bayramlı "Heç vaxt heç yerdə" proqramında həyat hekayəsindən söz açıb. "Şərq" xəbər verir ki, o, həmin verilişdə bunları söyləyib:

"Özümü dərk etdiyim gündən çətinlik yaşamışam. On iki yaşımdan çöllərdəyəm. Ata qayğısı, ana nəvazişi görməmişəm. Ailəmiz böyük idi. Mənim də üzərimə yük düşdü. İşləməyə məcbur qaldım. Atam musiqiçi idi, mən nağara çalırdım. Onunla birgə toylara gedirdim. O vaxt məclislər uzun müddətli olurdu. Nağara çalırdım, sonra görürdüm, əlimdən qan axır. Ağrılara dözmüşəm və bu yerə çatmışam. Bəzən fikirləşirəm ki, çətin günlər geridə qaldı. Sonra yenə düşünürəm, deyirəm, hələ çətin günlər qarşıdadır. Dincəlməyə vaxt yoxdur. Hər gün çalışmalısan. Övlad qayğıları da var. Arada qohumlar, yaxud da tanımadığım insanlar kömək üçün müraciət edirlər. "Yox" deyə bilmirsən. Ümumiyyətlə, bir iş çətinliklə başa gələndə bizim üçün daha faydalı, əziz olur. Pis günləri xatırlamalıyıq ki, yolumuzu azmayaq".

**Samirə**

## "Onunla dostuq"

Zeynəb Həsəni
Talıb Tale ilə eşq yaşamır



**Müğənni Zeynəb Həsəni "Özəl" proqramında duet ortağı Talıb Tale ilə arasındakı eşq iddialarına aydınlıq gətirib.**

*"Şərq"in məlumatına görə, o, bu xəbərlərin yalan olduğunu söyləyib:*

"Niyə duet ortaqları mütləq bir-biri ilə eşq yaşamalıdır? Məlum dedi-qodu yayıldı. Ağzı boş insanların şayiəsidir. Çox əsəbiləşdim. Danışıb özümü yormayacam. Talıbla Vasif Əzimovdan öncə dostuq. İlk duetimiz 2015-də yayımlandı. O zaman az da olsa, tanındım. Sonra birgə oxumadıq. Vasiflə də dost idik. Birgə duet oxuduq. Onunla çox pul qazandım, çox toylara getdik".

**Samirə**

# 11 yaşlı qız ana oldu

Hadisə ölkəni silkələyib

**11 yaşlı qızın dünyaya uşaq gətirməsi İngiltərəni qarışdırdı.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, balaca qızın ailəsinin doğuşa qədər mövcud durumdan xəbərdar olmaması hər kəsi şoka salıb.

"The Sun" qəzetinə danışan sosial xidmət işçiləri ana və uşağın sağlamlığını addım-addım yoxladıqlarını və hər ikisinin də vəziyyətinin yaxşı olduğunu söyləyiblər.



Qızın ailəsi isə hadisədən şoka düşdüklərini və vəziyyət qarşısında nə edəcəklərini bilmədiklərini deyiblər.

Həkim Karol Kooper qızın İngiltərənin ən gənc anası olduğunu və bu yaşda dünyaya uşaq gətirən qızın infeksiya riskinin də az olduğunu söyləyib.

**Yeganə**

# "Bakcell"dən 099 prefiksi ilə "xüsusi" və "eksklüziv" nömrələr




Bakcell "099" prefiksi ilə başlayan "xüsusi" və "eksklüziv" nömrələri istifadəyə verib. Məhdud sayda buraxılan bu nömrələr abunəçilərə "Klass 25" və "Klass 50" tarifləri ilə təklif olunur.

İstifadəçilərini özəlliyi ilə fərqləndirəcək və yeni hədəflərə doğru addımlamağa kömək edəcək 099 prefiksli yeni nömrələr bu gündən etibarən satışdadır. Müştərilər arzuladıqları nömrəni nomre.bakcell.com səhifəsi vasitəsilə rezervasiya edə və ya "Bakcell"in istənilən müştəri xidməti mərkəzi və diler mağazasından ala bilərlər.

Qeyd edək ki, Bakcell yeni "099" mobil prefiksini ötən ilin əvvəlində təqdim edib. Yeni prefiks abunəçilərə xüsusi və fərdi nömrələr əldə etmək üçün daha geniş imkanlar verir.

"Abunəçilərimiz yeni 099 prefiksimizə böyük maraq göstərib. Buna görə də biz onlara fərqlənmək və ən üstün müştəri təcrübəsindən yararlanmaq üçün 099 prefiksli eksklüziv nömrə almaq imkanı yaratmışıq. Bu nömrələri beynəlxalq səviyyədə 3 il ardıcıl olaraq "Azərbaycanın ən sürətli mobil şəbəkəsi" adını qazanmış Bakcell şəbəkəsində istifadə etmək isə əlavə üstünlüklər qazandırır", deyə "Bakcell"in baş icraçı direktoru Rainer Ratgeber bildirib. Daha ətraflı məlumat üçün https://www.bakcell.com/az/099-prefix-exclusive-special səhifəsinə daxil olun.

*Bakcell xidmət və şəbəkə keyfiyyətini müntəzəm qaydada təkmilləşdirməklə abunəçilərini ən üstün müştəri təcrübəsi ilə təmin etməyə davam edəcək.*

# Xəstələrə diaqnoz qoya biləcək

Robotlar səhiyyə işçisi kimi çalışacaq



**"Hanson Robotics" şirkəti "Grace" adlı tibbi robot istehsal edib.**

"Şərq" xarici mətbuata istinadən xəbər verir ki, yeni robot xəstəliyin diaqnozunu qoymaq, həmçinin atəşi ölçmək üçün termal kameraya sahibdir. Mütəxəssislər bu robotla epidemiya zamanı insanlar üçün etibarlı bir dost olmağı hədəfləyib. Həmçinin o, bir səhiyyə işçisi kimi danışıq terapiyası aparmaq və insan jestləri etmək bacarığına da malikdir. Havay Universitetinin professoru Kim Min-Sun koronavirus karantinlərinin evdə tək qalan bir çox insanın ruhi sağlamlığına mənfi təsir etdiyini bildirib. Min-Sun deyib ki, yalnız olanlar "Sophia" və "Grace" kimi sosial robotlardan kömək ala bilərlər. O hesab edir ki, insan şəklində olan robotlar cəmiyyətə müsbət təsir göstərəcək.

**Aynurə**

**Hörmətli "Nar" abunəçiləri!**

09.07.2021 tarixindən başlayaraq "Asan İmza" xidmətini istifadə edən abunəçilər mövcud SIM kartı dəyişmədən xidmətinin etibarlılıq müddətini SMS vasitəsilə uzada bilərlər. Bunun üçün "8500" qısa nömrəsinə uyğun açar sözündən ibarət SMS göndərilməlidir. Daha ətraflı məlumatı https://www.nar.az/asanimza/ səhifəsindən əldə etmək olar.

**ELANLAR**

İmişli rayonu, Göbəktala kənd sakini Ataşov Allahverdi Rövşən oğluna məxsus hərbi bilet itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Kənd Təsərrüfatı Müəssisəsinin (Buzovna Tərəvəzçilik-Südçülük sovxozu) Mustafayev Şahin Rahib oğluna verdiyi 2017-ci il tarixli 746 nömrəli arayış və torpaq sahəsinin sxemi iki ay öncə itdiyinə görə etibarsız sayılır.

20 saylı Nərimanov II seçki dairəsi dairə seçki komissiyasının baş məsləhətçisi Nəsibova Cəmilə Ramiz qızının 20/10 saylı iş vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

# TƏKRAR HƏRRACIN KEÇİRİLMƏSİNƏ DAİR ELAN

Şəmkir rayon İcra Şöbəsinin 03.05.2021-ci il tarixli, 34081/2019-12 saylı sifarişi ilə, Şəmkir rayonu, Təzəkənd kəndində yerləşən 0,06 ha torpaq sahəsinə dair 25 iyun 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş təkrar hərrac, hərracın iştirakçısı olmaması səbəbindən baş tutmadığından, həmin torpaq sahəsi satış qiyməti olan 5.400 (beş min dörd yüz) manatdan 20% aşağı olmaqla, yəni 4.320 (dörd min üç yüz iyirmi) manata təkrar açıq hərraca çıxarılmışdır.

Təkrar hərrac 09 iyul 11:00 (növbəlik qaydasında) tarixinə təyin edilmişdir.

Təkrar hərracda iştirak üçün satış qiymətinin 5%-i, yəni 216 (iki yüz on altı) manat miqdarında beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir.

Hərrac addımı - ilkin satış qiymətinin 1%-dən çox olmamaqla

*(Əlavə olaraq "Qeyd"ə bax).*

**QEYD:** Yuxarıda göstərilən hərracda iştirak etmək üçün aşağıdakı sənədlər hərracın keçirilməsinə ən geci 1 (bir) iş günü qalanadək hərracın təşkilatçısına təqdim olunmalıdır. 1) Hərracda iştirak etmək üçün şəxs və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən imzalanmış (hüquqi şəxs tərəfindən əlavə olaraq möhürlə təsdiqlənmiş) ərizə (hərracın təşkilatçısı tərəfindən müəyyən edilən nümunəyə müvafiq); 2) Elanda göstərilmiş hərrac predmetinə dair behin hərracın təşkilatçısına ödənildiyini təsdiq edən sənəd; 3) Fiziki şəxslər tərəfindən şəxsiyyətini təsdiq edən sənədin surəti;

4) Hüquqi şəxslər və (və ya) fərdi sahibkarlar tərəfindən vergi ödəyicisinin uçota alınması haqqında şəhadətnamənin surəti;

5) Torpaq sahələri hərracı üzrə xarici, hüquqi və fiziki şəxslər hərraca buraxılmırlar;

6) Hərracın iştirakçılarına onların hərracda iştirakı statusunu əldə etməsini müəyyənləşdirən bilet verilir;

7) şəxs hərracda iştirak etmək üçün ərizənin qəbulu başa çatanadək təşkilatçıya yazılı formada müraciət etməklə, öz ərizəsini geri götürə bilər;

8) Ərizənin geri götürülməsi hərracın şərtlərinə uyğun olduqda, ödənilmiş beş məbləği 2 (iki) iş günü ərzində geri qaytarılır.

9) Hərracda iştirak edən, lakin onu udmayan şəxslərin behi 2 (iki) iş günü müddətində geri qaytarılır;

10) Hərracda iştirak etmək hüququ əldə etmiş şəxslərə "sifarişçi" və (ya) "təşkilatçı" tərəfindən satışa çıxarılan əmlakla tanış olmaq imkanı yaradılır;

11) Qalib gəlmiş şəxs qanunvericiliyə uyğun tərtib edilmiş protokolu hər hansı üzrlü səbəbi olmadan imzaladıqda, yaxud əmlakın dəyərini ödəməkdən imtina etdikdə verilən beh geri qaytarılmır. Hərracın qalibi hərracın yekunları barədə protokolun tərtib edildiyi vaxtdan ən geci 3 (üç) iş günü ərzində ödəməli olduğu pul vəsaitini "sifarişçi" icra qurumunun depozit hesabına köçürməlidir.

**Hərracın təşkilatçısı "Əmlak Hərrac Mərkəzi" MMC**

**Ünvan: Bakı şəhəri, Yasamal ray., Məmməd Rahim 4a.**

**Tel: (+99412) 539-47-22 ; (+99455) 745-25-56 e-mail: info@e-herrac.com**

**rəsmi internet saytı: e-herrac.com**

**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

**-Dizayn** (3-6ay)

**-Masaj** (3 ay)

**-Biçmə - Tikiş** (3 ay)

**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**

Baş redaktor: **Akif Aşırlı**
Baş redaktorun ı müavini: **Yusif Nəzərli**
Redaktor: **Ayyət Əhməd**

**Reportyorlar qrupu:** Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov, Aynurə Pənahqızı
**Texniki heyət:** Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "**Şərq**"in kompyuter mərkəzində yığılır, səhifələnir və "**Azərbaycan**" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
**www.sherg.az**
e-mail: **sherq-1996@mail.ru**

Ünvan: Mətbuat prospekti, "**Azərbaycan**" nəşriyyatı.
**Telefon:** 447-32-41 538-44-50, internet 538-44-15,
**İndeks: AZ1073**

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611**
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1177

# Əhaliyə ciddi xəbərdarlıq

Temperatur 50 dərəcəni keçəcək



**ABŞ-da temperatur rekord həddə çatıb.**

"Sherg.az" xarici mətbuata istinadən xəbər verir ki, meteorologiya xidmətləri əhaliyə ciddi xəbərdarlıq edib. İsti hava xüsusilə ABŞ-ın şimal-qərbindəki Oreqon və Vaşinqton şəhərlərində qeydə alınıb. Həmçinin isti hava Kaliforniya, Nevada və İdaho bölgələrində də müşahidə olunmaqdadır. Mütəxəssislər havanın temperaturunun 50 dərəcədən yuxarı keçəcəyini bildirib.

**Aynurə**

# NASA araşdırmanın nəticələrini paylaşıb

Marsda bir-birinə yaxın göllər var



**Marsın sirləri bir-bir ortaya çıxır. ABŞ Aerokosmik Agentliyi olan NASA Qırmızı Planetdə yeni bir araşdırmanın nəticələrini paylaşıb.**

"Şərq"in "Sabah.com"a istinadən məlumatına görə, Marsda yeraltı göllər əvvəllər düşünüləndən daha çox yayılıb. Ancaq bu göllərlə əlaqəli başqa bir vəziyyət ortaya çıxıb.

NASA əvvəllər Marsda yeraltı hovuz olduğunu bildirmişdi. Ancaq yeni araşdırma vəziyyəti daha fərqli edib. Ötən il Yerdən göndərilən radar siqnalları ilə aşkarlanan hovuzun tək olmadığı üzə çıxıb.

Bu yaxınlarda həmin göllər şəbəkəsi ilə bağlı təəccüblü məlumatlar əldə olunub. Göllərin bəziləri maye şəklində su içə bilməyəcək qədər soyuq bölgələrdə idi.

2018-ci ildə tapılan yeraltı göldən sonra isə keçən il bir-birinə yaxın göllərin olduğu aşkarlandı. Bu göllər Yerdən göndərilən siqnallarla aşkar edilib.

**Yeganə**

# Şimali Koreya lideri arıqlayıb

Xarici media Kimin ağır xəstəliklə mübarizə apardığını qeyd edib






**Şimali Koreya lideri Kim Çen İnn daim fiziki görünüşü ilə bütün dünyanın diqqətini çəkib.**

"Şərq" xarici mətbuata istinadən xəbər verir ki, hər zaman kök olan lider bu dəfə yeni fotolarında xeyli arıqlaması ilə gündəmə gəlib. Fotoları təhlil edən "NK Xəbərlər" saytı Şimali Koreya liderinin kəskin şəkildə arıqladığını vurğulayıb. Seulda yerləşən xəbər saytı, 37 yaşında olduğu düşünülən Kimin sol qoluna taxılmış 12 min dollarlıq sevimli saatının böyüdülmüş şəkillərini yayımlayıb. Həmin fotolar bu ilin mart və ötən ilin noyabr aylarında çəkilib. Görüntülərdə açıq-aydın şəkildə onun qolunun daha incə olduğu görünüb. Sayt Kimin ağır xəstəliklə mübarizə apardığını qeyd edib.

*Qeyd edək ki, daha əvvəl isə Kimin ölümü ilə bağlı iddialar ortaya atılmış və hətta onun saxta görüntülər yayımlanmışdı.*

**Aynurə**



# Dağlardan qar daşıyırlar

*Həm sərinlənirlər, həm satırlar, həm də içki kimi istifadə edirlər*





**Havaların hədsiz isti keçdiyi Antalya və Muğla bölgəsində əhali Toros dağlarına üz tutub. Dağda sərinləmək üçün yox. Dağın sərinliyini evlərinə daşımaq üçün.**

Türkiyə mediası yazır ki, Antalya və Muğla əhalisi Toros dağlarında buzlaşmış qar kütlələrini kəsərək maşınlarla sahil bölgəsinə gətirirlər. Yerli əhali qar kütlələrindən adına "qarlama" deyilən bəhməz, bal və meyvə şirələrinin soyudulmasında istifadə edir, bəziləri isə qar kütlələrini bu sərin içkilərin istehsalçılarına satırlar. Antalyanın Kaş əyaləti ilə Muğlanın Seyidkəmər əyaləti arasında qalan Toros dağlarının qərb tərəfində ən yüksək təpə olan Ağdağın cənub-qərb ətəklərində 2 min 650 metr yüksəklikdəki Evkaya Yaylası yolunun kənarında və qayaların arasında toplaşmış qar kütləsi sərinlik və gəlir qaynağıdır. Kaş, Almalı və Seyidkəmərdən çətin dağ yollarını keçərək gələnlər əvvəlcə qar kütləsinin üzərini təmizləyir. Qar kütlələri elektrik mişarı, əl mişarı və başqa kəsici alətlərlə dördbucaq formada kəsilir. Sonra qar kütləsinin altı oyulur. Ortaya çıxan 60-80 kiloqramlıq qar kütləsi çuvallara qoyulur. Çiyinlərdə daşınaraq avtomobillərə yerləşdirilir və sahilə gətirilir. Qar kütləsi gətirənlər bundan özləri evdə də sərin içki məqsədilə istifadə edir, soyuq, sərin içkilər istehsalçılarına satmaqla yanaşı, qonşulara, dost-tanışa da hədiyyə edirlər.

**Məlahət**

# Ac-susuz, həm də döyülüblər

Yunanlar qaçqınları soyundurub Türkiyəyə göndərdilər





**Türkiyə Milli Müdafiə Nazirliyi Yunanıstan təhlükəsizlik orqanının 42 qaçqının soyundurulub, çılpaq halda ölkədən çıxarılaraq Türkiyəyə göndərildiyi məlumatını yayıb.**

"Şərq" "Milliyet.com"a istinadən bildirir ki, köçkünlər yunan təhlükəsizlik əməkdaşları tərəfindən döyülüblər. Nazirliyin yazılı açıqlamasında Yunanıstanda qaçqınlara qarşı işgəncələrin davam etdiyi bildirilir. Yunanıstandan Türkiyəyə qaçaq yollarla keçməyə çalışan 12-si çılpaq, cəmi 42 qaçqın qrupu Ədirnə sərhədində yaxalanıb. Ədirnə Valiliyinin xahişi ilə qaçqınların təməl ehtiyaclarının qarşılanması məqsədilə Nazimbəy Çiftliyi bölgəsinə keçidlərinə icazə verilib. Qaçqınlar sorğu zamanı Yunanıstanda yaxalandıqdan sonra yemək və su verilmədiyini, libaslarının çıxarılaraq Türkiyəyə zorla, döyülərək göndərildiklərini deyiblər. 42 qaçqın Ədirnə polisinə təslim edilib. Onların üçüncü ölkəyə keçidi ilə bağlı işə başlanılıb.

**Məlahət**



# Üzük saxta olub

Şeyma Subaşının ayrılıq səbəbi bilindi

**Misirli milyarder kimi tanınan Mohammed Alsaloussi arasındakı eşqin sona çatmasıyla sosial media fenomeni Şeyma Subaşı keçmiş sevgilisiylə çəkdirdiyi bütün fotolarını sosial şəbəkədən çıxarıb.**

Ayrılıq səbəbi barədə "keçmiş sevgili dolandırıcı çıxdı" iddialarına isə Şeyma Subaşı "əsassız ittihamlardır" cavabını verib. Keçmiş sevgilinin Şeymaya aldığı bahalı hədiyyələrin də saxta olduğu xəbərləri də maqazin dünyasında yayılmışdı. Elə isə həqiqət nədən ibarətdir? Həqiqət budur ki, misirli oğlan Türkiyədə məşhur olan Şeyma Subaşı sayəsində ölkədə tanınmaq və biznes qurmaq məqsədi güdürmüş. "Misirli milyarder" əvvəlcə eyni işləri başqa ölkələrdə də həyata keçirib. Bir çox ölkələrdə tanınan qadın isimləriylə adı qoşa çəkilib. Amma bunları gizlətməyi bacarıb. Misirli milyarder, həqiqi milyarder də deyil. Kürəyini başqalarına yaslayıb onların puluyla krallıq qurmağa çalışan birisidir.

**Məlahət**